UNITED NATIONS
AZERBAIJAN

# BMT-nin ölkə üzrə illik hesabatı **2023**





# MÜNDƏRİCAT


**REZİDENT ƏLAQƏLƏNDİRİCİDƏN ÖN SÖZ** 3

**BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİ** 4

**ƏSAS İNKİŞAF TƏRƏFDAŞLARI** 4

**FƏSİL 1: ÖLKƏDƏ VƏ REGİONDA BAŞ VERMİŞ ƏSAS HADİSƏLƏR** 5

**FƏSİL 2: ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SƏNƏDİ VASİTƏSİLƏ BMT-NİN İNKİŞAF SİSTEMİNİN MİLLİ İNKİŞAF PRİORİTETLƏRİNƏ DƏSTƏYİ** 7

- 2.1. Əməkdaşlığa dair Çərçivə Sənədinin nəticələrinin icmalı 7
- 2.2. Əməkdaşlığa dair Çərçivə Sənədinin prioritetləri, nəticələri və məhsulları 10
- 2.3. Tərəfdaşlıqlara dəstək və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi 24
- 2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı işləməsinin nəticələri: BMT birliyi, effektivliyi və səmərəliliyi 24
- 2.5. Maliyyə icmalı və resursların cəlb olunması 25

**FƏSİL 3: BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİNİN NÖVBƏTİ İL ÜÇÜN ƏSAS İSTİQAMƏTİ** 26


Üz səhifə şəkli: İlk dəfə 2023-cü ildə yaradılmış qadınlardan ibarət öncül minatəmizləmə qrupunun üzvü, Nərmin Mustafayeva.

Fotonun müəllifi: BMTİP/Məmməd Əliyev/2023

23 illik fasilədən sonra: Ana və uşaq sağlamlığı və bir çox əlavə istiqamətlərdə olduqca vacib məlumatları toplayan Çoxgöstəricili Klaster Sorğusu (MICS) komandası 12320 ev təsərrüfatında sorğu apararaq, mühüm məqamlar ortaya çıxarıb.

Fotonun müəllifi: UNICEF/Jalə Rzayeva/2023

# REZİDENT ƏLAQƏLƏNDİRİCİDƏN ÖN SÖZ



2023-cü il Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı qurumları üçün dayanıqlılıq və əməkdaşlıq ili olub. Hazırkı illik hesabat bizim hətta çətinliklərlə qarşılaşdıqda belə, müxtəlif sektorlarda nəticələr əldə etməyə imkan verən kollektiv çevikliyimiz və uyğunlaşma qabiliyyətimizə nəzər salmaq imkanı verir. Əldə etdiyimiz nəticələr heç kəsi kənarda qoymamaq naminə Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) istiqamətində irəliləmək üçün göstərdiyimiz birgə səylər və müştərək öhdəliyimiz sayəsində mümkün olub. Hökumət, elmi ictimaiyyət, vətəndaş cəmiyyəti, media, özəl sektor və digər tərəfdaşlarla əməkdaşlıq vasitəsilə, biz beş istiqaməti rəhbər tutaraq, milli inkişaf prioritetlərini dəstəklədik: inklüziv artım və layiqli əmək, səmərəli dövlət və sosial xidmətlər, məlumat və siyasətlərin təhlili, iqlim dəyişmələri ilə mübarizə, gender bərabərliyi. Bir-biri ilə əlaqəli olan bu istiqamətlər abad və dinc Azərbaycanı əks etdirən ümumi milli gələcəyə baxışa birlikdə töhfə verir.

Çoxtərəfli tərəfdaşlıqlar vasitəsilə DİM-lərin icrasının sürətləndirilməsinə dəstək üçün 2022-ci ildə yaradılmış yüksək səviyyəli DİM Dialoqu platforması inklüziv siyasət dialoqları üçün olduqca vacib forum kimi çıxış etməyə davam edib. DİM Dialoqları nəticəsində ərsəyə gələn siyasət tövsiyələri Azərbaycanın DİM əsaslı transformasiyaya dair milli öhdəliklərinin formalaşdırılmasında böyük rol oynayıb. Bu öhdəliklər 2023-cü ilin sentyabr ayında DİM-lər üzrə Sammitdə təqdim olunub. Keyfiyyətli təhsil, səhiyyə və sosial müdafiə xidmətləri vasitəsilə insan kapitalına davamlı investisiya DİM-lərin icrasında irəliləyiş üçün həlledici olub. Məsələn, inklüziv təhsil daha 20 məktəbdə tətbiq olunmağa başlayıb və universal-mütərəqqi ev ziyarəti modeli təqribən 46 min ailəni əhatə edib.

BMT-nin insan hüquqları mexanizmlərində faydalı iştirak üçün maraqlı tərəflərin potensiallarının gücləndirilməsi üzrə səylərimiz konkret nəticələr verib. Çoxgöstəricili Klaster Sorğusunun başa çatması və qida təhlükəsizliyinə nəzarət tədbirləri üzrə milli potensialların gücləndirilməsi siyasətlərin daha yaxşı hazırlanması və monitorinqi üçün məlumat əsasının təmin edilməsinə yönələn səylərimizi əks etdirir. Eyni zamanda, ətraf mühitin mühafizəsi və iqlim dəyişmələri ilə mübarizə sahəsində fəaliyyətimiz, xüsusilə yenidən baxılmış Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrə dəstəyimiz planetimizin gələcək nəsillər üçün qorunub saxlanılması ilə bağlı müştərək öhdəliyimizi təcəssüm etdirir. Qadın və qızların səlahiyyətlərinin artırılması gördüyümüz işlərin diqqət mərkəzində qalmağa davam edib. Qadın Resurs Mərkəzləri və peşə təlimi proqramları çərçivəsində biz 7600-dən çox qadını əhatə edərək, Qadınların Səlahiyyətlərinin Artırılması Prinsipləri vasitəsilə gender bərabərliyi üçün təşviqat apardıq və kənd ərazilərində yaşayış vasitələrini gücləndirdik.

2024-cü ilin fürsətlər və əsaslı dəyişikliklərlə zəngin bir il olacağına ümid edirik. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri Konfransına (COP29) ev sahibliyi etməsi iqlim dəyişmələri ilə mübarizə və dayanıqlı inkişafın möhkəmləndirilməsi üzrə birgə səylərimizi gücləndirmək üçün unikal imkan yaradır. Mən il boyu göstərdikləri qətiyyətli dəstək və töhfələrinə görə Azərbaycan Hökumətinə, tərəfdaşlarımıza və əzmkar

> **2023-cü ildə BMT daha inklüziv, ədalətli və dayanıqlı cəmiyyətin qurulması istiqamətində Azərbaycan hökumətinə və xalqına dəstək göstərmək öhdəliyini qətiyyətlə qoruyub saxlayıb.**

BMT əməkdaşlarına minnətdarlığımı bildirirəm. Bu hesabatda əksini tapan nailiyyətlər əməkdaşlığın, dayanıqlılığın və ortaq gələcəyə baxışın nəyə qadir olduğunu təcəssüm etdirir.

Azərbaycandakı BMT sistemi Azərbaycan Hökumətinə və xalqına ədalətlilik, inklüzivlik və ətraf mühitin məsuliyyətli idarə olunmasına söykənən dayanıqlı gələcəyə doğru atdıqları addımlarda dəstək göstərmək öhdəliyini qətiyyətlə qoruyub saxlayır.

**Vladanka Andreeva**
Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi

# BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİ

BMT-nin 18 agentlik, fond və proqramını bir araya gətirən BMT-nin Ölkə üzrə İdarə Heyəti öz möhkəm əzm və təcrübəsi ilə DİM-lərə nail olmanın sürətləndirilməsinə töhfə verir. Bizim birgə səylərimiz Azərbaycanın heç kəsi kənarda qoymayan inklüziv, ədalətli cəmiyyətə, eyni zamanda regionda və dünyada inkişaf tərəfdaşına çevrilməklə bağlı milli hədəfini dəstəkləyir.

UNITED NATIONS AZERBAIJAN

Food and Agriculture Organization of the United Nations · International Labour Organization · IOM UN MIGRATION · UNDP · UNDRR UN Office for Disaster Risk Reduction

UNECE · unesco · UNFPA · UN-HABITAT · UNHCR The UN Refugee Agency

UNITED NATIONS HUMAN RIGHTS OFFICE OF THE HIGH COMMISSIONER · unicef for every child · UNIDO · UNODC United Nations Office on Drugs and Crime · UNOPS

UN VOLUNTEERS · UN WOMEN · World Health Organization

# ƏSAS İNKİŞAF TƏRƏFDAŞLARI

| | 1.1 | 2.1 | 2.2 | 3.1 | 4.1 |
|---|---|---|---|---|---|
| BMT | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Avropa İttifaqı | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Azərbaycan | ✓ | ✓ | | ✓ | |
| Almaniya | | ✓ | | | |
| Yaponiya | | | | ✓ | |
| Sloveniya | | ✓ | | | |
| Niderland | ✓ | | | | ✓ |

| | 1.1 | 2.1 | 2.2 | 3.1 | 4.1 |
|---|---|---|---|---|---|
| Böyük Britaniya | ✓ | ✓ | | | ✓ |
| ABŞ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Türkiyə | ✓ | ✓ | | ✓ | |
| Takeda | | | | | ✓ |
| gef | | | | ✓ | |
| The Global Fund | | ✓ | | | |
| GREEN CLIMATE FUND | | | | ✓ | |

- Nəticə 1.1: İnkluziv artım və layiqli əmək
- Nəticə 2.1: Güclü institutlar, keyfiyyətli dövlət və sosial xidmətlər
- Nəticə 2.2: Məlumatlara əsaslanan qərar qəbulu və siyasətlər
- Nəticə 3.1: Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinə qarşı mübarizə
- Nəticə 4.1: gender bərabərliyinə əsaslanan cəmiyyət



Azərbaycan Uşaqlar Birliyi-Uşaq Sığınacağının Qubada uşaqlar üçün təşkil etdiyi asudə vaxt fəaliyyətlərində əyləncəli anlar

Fotonun müəllifi: BMqT/Rüfət Zəkizadə/ 2023

# ÖLKƏDƏ VƏ REGİONDA BAŞ VERMİŞ ƏSAS HADİSƏLƏR

## DİM-lərin icrasında irəliləyiş

2023-cü ildə Azərbaycan Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lər) nail olmaq üçün irəliləyişi sürətləndirmək əzmini nümayiş etdirməyə davam edib. Ölkə 2023-cü ildə keçirilmiş DİM-lər üzrə Sammitdə DİM-lər üçün Transformasiya üzrə Milli Öhdəliklərini təqdim edən 40 ölkədən biri olub. Yüksək səviyyəli siyasi öhdəlik bir çox DİM göstəriciləri üzrə əsaslı irəliləyiş əldə etməyə imkan verib. BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının 2015-2023-cü illərdə DİM-lərin icrasına dair təhlilinə görə, Azərbaycan ümumilikdə 248 qlobal DİM göstəricisindən 61-də irəliləyiş əldə edib.[1] DİM-lərin icrasını daha da sürətləndirmək üçün, hədəf DİM-lərə yönələn əlaqələndirilmiş səylər və investisiyalar Azərbaycanda bütün DİM-lər üzrə irəliləyişə təkan verə bilər.

## Sosial-iqtisadi icmal

Sonuncu İnsan İnkişafı İndeksində (2022) Azərbaycanın irəlilədiyi görünür. Belə ki, ölkə 2021-ci illə müqayisədə qlobal mövqeyini 0,76 balla 191 ölkə arasında 89-cu yerdə qərarlaşmaqla yaxşılaşdırıb. İnkişafda bərabərsizliyə nəzər saldıqda, indeks 0.70-ə düşür. Bu, ölkə daxilində bərabərsizliklərlə bağlı çətinliklərdən xəbər verir. Bir sıra əsas sosial-iqtisadi göstəricilər, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin və orta məktəblərin, səhiyyə müəssisələri və səhiyyə işçilərinin mövcudluğu, daha yaxşı yaşayış standartlarının və maliyyə resurslarının müyəssərliyi baxımından regionlar arasında bərabərsizliklər müşahidə olunur. Bundan əlavə, sonuncu Gender Bərabərsizliyi İndeksi (2022) diqqətəlayiq irəliləyişə baxmayaraq, reproduktiv sağlamlıq xidmətlərinə çıxış imkanı, siyasət və əmək bazarında iştirak kimi sahələrdə gender bərabərliyi baxımından boşluqların hələ də qaldığını göstərir. 2023-cü ildə Azərbaycan sağlam makroiqtisadi vəziyyətini qoruyub saxlayıb. Pandemiyadan sonrakı güclü dirçəlişin ardınca, iqtisadi artım 2022-ci illə (4.6%) müqayisədə 2023-cü ildə (1.1%) səngiyib.[2] Bu, neft-qaz sektorunda ÜDM-in bir qədər azalması və qeyri-enerji sektorlarında artım sürətinin aşağı düşməsindən qaynaqlanıb. Ölkədə ÜDM-in təqribən 37 faizi, ixracın isə 90%-i neft-qaz sektorunun payına düşür. 2023-cü ilin yanvar ayından başlayaraq, Hökumət qiymət artımlarının əhalinin həssas təbəqələrinə təsirlərini azaltmaq məqsədilə, minimum əməkhaqqının, pensiyaların və yaşayış minimumunun artırılması kimi bir sıra büdcə siyasəti tədbirləri həyata keçirib. 2023-cü ilin fevral ayında Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi (2023-2026)" qəbul edib. Sənəd iqlim dəyişmələrinə davamlılıq, ətraf mühitin mühafizəsi və sosial və idarəçilik prinsiplərinin inteqrasiyası məsələlərini prioritetləşdirməklə dayanıqlı maliyyə artımına təkan vermək məqsədi daşıyır. İnteqrə olunmuş Milli Maliyyələşdirmə Çərçivəsi (İMMÇ) prosesinin davam etdirilməsi dayanıqlı inkişaf üçün maliyyələşmə ilə bağlı daha əlaqələndirilmiş tədbirlərə təkan verə bilər.

## Münaqişədən sonrakı bərpa

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması 2023-cü ildə ölkənin əsas prioritetlərindən biri olaraq qalmağa davam edib. 2021-2023-cü illərdə Hökumətin işğaldan azad edilmiş ərazilərə yönəltdiyi investisiyaların ümumi həcmi təqribən 7 milyard ABŞ dollarına bərabər olub. 2024-cü ildə daha 2.4 milyard ABŞ dolları məbləğində vəsaitin bu istiqamətə yönəldiləcəyi nəzərdə tutulur. Ayrılan maliyyə resurslarının böyük qismi məcburi köçkünlərin dayanıqlı qayıdışına imkan yaratmaq üçün minatəmizləmə işlərinə və regional infrastrukturun yenidən qurulmasına yönəldilir. 2024-cü ilin yanvar ayının sonuna olan məlumata görə, ümumilikdə 5354 məcburi köçkün (1360 ev təsərrüfatı) işğaldan azad edilmiş ərazilərə qayıdıb. Bütün bərpa və yenidənqurma işlərinin vaxtı, ardıcıllığı və miqyası minatəmizləmə işlərinin tempindən asılı olacaq. Bərpa prosesinə özəl investisiyaların cəlb olunması qarşıdakı dövrdə böyük əhəmiyyət kəsb edəcək.

## Ətraf mühit və iqlim dəyişmələri ilə mübarizə

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təmiz ətraf mühiti və "yaşıl artım" ölkəsinə çevrilməyi ölkənin 2030-cu ilədək inkişafının beş əsas prioritet istiqamətindən biri kimi müəyyən edib. Ölkə iqlim dəyişmələri üzrə Paris Sazişi çərçivəsində istixana effekti yaradan qaz tullantılarının baza ili (1990-cı il) ilə müqayisədə 2030-cu ilədək 35% azaldılması barədə üzərinə öhdəlik götürüb. 2023-cü ildə isə bu öhdəliyi 2050-ci ilədək 40% azaltmaq olaraq yeniləyib. Ölkədə istixana effekti yaradan qaz tullantılarının ən böyük hissəsi (80%) hələ də energetika sektorunun payına düşür. Bərpa olunan enerji mənbələrinə dair qanunun qəbulu, eləcə də hazırda bərpa olunan enerji sahəsində davam etməkdə olan irimiqyaslı layihələr sayəsində qarşıdakı illərdə bərpa olunan enerji mənbələrinin payının əhəmiyyətli dərəcədə artacağı gözlənilir.

Azərbaycanın bir çox hissələrinin sel və daşqınlara meyilliliyinin artması dağlıq ərazilərdə torpaq sürüşmələri və yay mövsümlərində quraqlığın uzanmasına gətirib çıxarır. Torpaqların həddən artıq istismarı (o cümlədən həddən artıq otarma), meşələrin qırılması və səmərəsiz suvarma üsulları torpaqların deqradasiyasına səbəb olur. İqlim dəyişmələrinin təsirlərinə ən həssas olan sektorlar arasında kənd təsərrüfatı, səhiyyə, su ehtiyatları, meşə təsərrüfatı və turizm yer alır. Qarşıdan gələn COP29 konfransına sədrlik edəcək Azərbaycan "yaşıl keçid" üçün səylərini artırmaqdadır.

1. Bununla yanaşı vurğulamaq lazımdır ki, Azərbaycan DİM-lər üzrə milli monitorinq çərçivəsində 119 DİM göstəricisini prioritetləşdirib. Beləliklə, DİM-lər üzrə milli hesabatvermə prosesi qlobal DİM göstəriciləri toplusuna deyil, bu prioritetləşdirilmiş göstəricilərə əsaslanır.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

3. Dövlət Statistika Komitəsi

### Demoqrafik və Sosial Göstəricilər

| | |
|---|---|
| **Əhali (2023) (DSK 2023)**[3] | 10,1 milyon |
| **Gözlənilən ömür uzunluğu (2022)** | 76 ümumi, 73.6 K, 78.4 Q |
| **Milli yoxsulluq səviyyəsi (2022)** | 5.5% Cəmi, 5.6% K, 5.1% Q |
| **Ana ölümü səviyyəsi (2022)** | 14.7% |
| **Körpə ölümü səviyyəsi (hər 1000 diri doğulana) (2022)** | 7.8 Cəmi, 8.0 K, 7.6 Q |
| **Təhsildə iştirak əmsalı (2022)** | 54% məktəbəqədə<br>87% ibtidai və orta<br>41% ali |
| **Rəhbər vəzifələrdə olan qadınların xüsusi çəkisi (2022)** | 35.4% |

### Makroiqtisadi göstəricilər

| | |
|---|---|
| **Adambaşına düşən ÜDM (2022) (DSK 2023)** | 7797 ABŞ dolları |
| **Dövlət büdcəsinin xərcləri (2022)** | 22.5% - sosial müdafiə<br>4.3% - səhiyyə<br>11.6% - təhsil |
| **İşsizlik səviyyəsi (2022)** | 5.6% Cəmi, 4.8% K, 6.5% Q |

### Seçilmiş qlobal reytinqlər

| | |
|---|---|
| **İqtisadi Azadlıq İndeksi (Oktyabr 2023)** | Bal: 61,6<br>Qlobal mövqeyi: 70/176<br>Regional mövqeyi: 34/44 |
| **DİM indeksi (2023)** | Bal: 73,5 bal<br>Qlobal mövqeyi: 53/163 |
| **Qlobal Gender Fərqi İndeksi (2023)** | Bal: 0,692<br>Qlobal mövqeyi: 97/146 |
| **Ətraf mühit üzrə icra indeksi (2022)** | Bal: 38,6<br>Qlobal mövqeyi: 104/180 |



FƏSİL 2

# ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SƏNƏDİ VASİTƏSİLƏ BMT-NİN İNKİŞAF SİSTEMİNİN MİLLİ İNKİŞAF PRİORİTETLƏRİNƏ DƏSTƏYİ

## 2.1. Əməkdaşlığa dair Çərçivə Sənədinin nəticələrinin icmalı

2021-2025-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (UNSDCF) BMT və Azərbaycan arasında dörd prioritet sahə və beş nəticəyə bölünməklə, əməkdaşlıq prioritetlərini müəyyən edir: 1) inklüziv artım və layiqli əmək; 2) güclü institutlar, keyfiyyətli dövlət və sosial xidmətlər; 3) məlumatlara əsaslanan qərar qəbulu və siyasətlər; 4) ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinə qarşı mübarizə; 5) gender bərabərliyinə əs aslanan cəmiyyət. 2023-cü ildə Azərbaycandakı BMT sistemi tərəfdaşlarla əməkdaşlıq şəraitində, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və digər əsas milli sənədlərlə uzlaşan siyasət səviyyəli dəyişiklikləri və institusional potensialın gücləndirilməsini prioritetləşdirdi. Yerli səviyyədə məqsədyönlü dəstək tədbirləri yerli icmaları birbaşa cəlb edərək, onların xüsusi ehtiyac və çətinliklərinin həllinə yönəldi. "Yuxarıdan-aşağı siyasət"lə "aşağıdan-yuxarı" icma tədbirlərinin sintezi BMT-nin Azərbaycandakı səylərinin hərtərəfli və inklüziv xarakterini ön plana çıxararaq, dayanıqlı inkişafa yönələn fəaliyyətlərdə heç kəsin kənarda qalmamasını təmin edir.




**5,700 km²**
ərazi (456 kəndi əhatə etməklə) minalarla çirklənməyə görə tədqiq edilib

**46,400**
**AİLƏ** erkən uşaqlıq dövründə inkişaf üzrə xidmətlərlə əhatə olunub

**8,900**
**NƏFƏR**
hüquqi yardımdan faydalanıb
51%-i qadınlar

**55,400**
**MƏCBURİ KÖÇKÜN**
partlayıcı sursatların riskləri barədə maarifləndirilib
38%-i qadınlar

**21,800**
**GƏNC** əsas həyat bacarıqları bilikləri ilə təchiz olunub
47%-i qadınlar

**7,600**
**QADIN** 15 Qadın Resurs Mərkəzində fəaliyyətə cəlb olunub

**9,400**
**NƏFƏR** gender bərabərliyi və gender əsaslı zorakılıq barədə məlumatlandırılıb

**26**
**DÖVLƏT-ÖZƏL**
peşə təhsili üçün tərəfdaşlığı qurulub

**18**
**MƏKTƏB**
əlilliyi olan uşaqlar əlçatan olub

**3,309**
**UŞAQ**
buraxılmış peyvəndləməyə cəlb edilib

**4,500**
**NƏFƏR**
Milli Uşaq Qaynar Xətti vasitəsilə dəstək alıb
28%-i uşaqlar

Milli İmmunlaşdırma Təlimatı hazırlanıb

İqlim dəyişmələrinə uyğunlaşmaya dair hüquqi çərçivənin layihəsi hazırlanıb

Düzəliş edilmiş Milli səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC-lər) təqdim olunub

### Əməkdaşlığa dair Çərçivə Sənədinin Nəticə Göstəriciləri üzrə İrəliləyiş Qrafiki[4]

| Göstəricilər | İlkin vəziyyət | 2021 | 2022 |
|---|---|---|---|
| İqtisadiyyatda mikro, kiçik və orta müəssisələrin (MKOM) xüsusi çəkisi | 16.7 (2020) | 16.4 | 13.9 |
| DİM 8.6.1 İşləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin (15-24 yaşda olan) xüsusi çəkisi | 23 % (2017) | | cəmi 19,8%<br>qadınlar 49,7%<br>kişilər 50,3% |
| DİM 8.5.1 İşçilərin orta saathesabı əmək haqqı | cəmi 5 AZN<br>qadınlar 4<br>kişilər 5.6<br>(2020) | cəmi 4.9 AZN<br>qadınlar 3,8<br>kişilər 5.6 | cəmi 5.6 AZN<br>qadınlar 4.4<br>kişilər 6.3 |
| DİM 3.4.1 Ürək-damar xəstəlikləri, xərçəng, diabet, tənəffüs yollarının xroniki xəstəliklərindən ölüm səviyyəsi (hər 100000 nəfərə) | cəmi 449.1<br>qadınlar 436.4<br>kişilər 462<br>(2019) | cəmi 557.5<br>qadınlar 550.9<br>kişilər 564.4 | cəmi 448.3<br>qadınlar 426.8<br>kişilər 469.9 |
| DİM 1.a.2 Ümumi dövlət xərclərində təhsil, səhiyyə və sosial müdafiəyə çəkilən xərclərin xüsusi çəkisi | cəmi 32.4<br>səhiyyə 3.4<br>təhsil 8.6<br>sosial müdafiə və sosial təminat 20.4<br>(2019) | cəmi 40.6<br>səhiyyə 5.7<br>təhsil 11.5<br>sosial müdafiə və sosial təminat 23,4 | cəmi 38.4<br>səhiyyə 4.3<br>təhsil 11.6<br>sosial müdafiə və sosial təminat 22.5 |
| DİM 17.18.1 DİM-lərin monitorinqi üçün statistik potensial göstəricisi<br><br>Məlumatları olan DİM göstəricilərinin xüsusi çəkisi | 34.8 faiz (2020) | 43.3 % | 45.2 % (2022)<br>48.8 % (2023) |
| DİM 13.2.1 Azərbaycan milli səviyyədə müəyyən olunmuş töhfələr, uzunmüddətli strategiyalar, milli uyğunlaşma planları, strategiyaları barədə hesabat verir | xeyr | | bəli (2023) |
| DİM 15.3.1 Deqradasiyaya məruz qalmış torpaq sahələrinin ümumi torpaq sahəsində xüsusi çəkisi | 9.6 % (2020) | 11.4 % | 12.9 % |
| DİM 6.4.1 Sudan istifadə səmərəliliyinin dəyişməsinin dinamikası (USD/m3) | 3.73 (2020) | 4.49 | 6.57 |
| DİM 7.3.1 İlkin enerji istehlakının ÜDM-ə nisbəti kimi hesablanan enerji tutumu (kq neft ekvivalenti/1000 manat) | 316.3 (2020) | 316.1 | 320.9 |
| Əhali arasında yeni doğulanların cins nisbəti | hər 100 qıza<br>114 oğlan (2020) | hər 100 qıza<br>116 oğlan | hər 100 qıza<br>112 oğlan |
| DİM 5.5.2 Rəhbər vəzifələr tutan qadınların xüsusi çəkisi | 34.6 % (2020) | 35,5% | 35,4% |
| Azərbaycanda gender əsaslı zorakılığın aradan qaldırılması üçün yaradılmış yerli və milli mexanizmlərin sayı | 0 | 2 | 2 |
| DİM 5.5.1 Milli parlamentlərdə a) qadınlar tərəfindən tutulan yerlərin xüsusi çəkisi | 18.2 % (2019) | 18.5 % | 18.6 % |
| DİM 3.7.2 Yeniyetmələr (10-14 yaşda və 15-19 yaşda olan) arasında doğum səviyyəsi, həmin yaş qrupunda olan hər 1000 nəfər qadına | 15-19: 39.6<br>23.2 (şəhər)<br>58.1 (kənd)<br>2020 | 15-19: 29.7<br>16.7 (şəhər)<br>44.7 (kənd) | 15-19: 37.3<br>20.6 (şəhər)<br>56.9 (kənd) |

4. Məlumatları olan göstəricilər təqdim olunur. Bir çox göstəricidə ən son məlumat 2022-ci ilə aiddir və 2023-cü ildə dərc edilən DİM-lər üzrə Milli Hesabat 2022-ci ilə qədər olan məlumatları əks etdirir.

Gender bərbarəliyinin fəaliyyətlərə inteqrasiyası (GEM) üzrə təhlil göstərir ki, 2023-cü ildə fəaliyyətlərin cəmi 7%-də gender bərabərliyi əsas məqsəd olub, 44%-də isə gender aspektlərinin inteqrasiyasına əhəmiyyətli dərəcədə diqqət yetirilib. 2021-2023-cü illər üzrə müqayisə aparıldıqda gender bərabərliyinə töhfədə geriləmə müşahidə edilir. Gender bərabarəliyinə əhəmiyyətli və əsaslı töhfə verən fəaliyyətlərin sayı azalıb və heç bir töhfə verməyən fəaliyyətlər üstünlük təşkil etməyə başlayıb.

### Gender bərabərliyinə töhfə (büdcə xərclərinin %-i)




### 2023-cü ildə BMT fəaliyyət göstərdiyi ərazilər. Ətraflı məlumat üçün UNINFO.ORG saytına nəzər yetirin.




*Narıncı rəng bütün ölkəni əhatə edən fəaliyyətlərin sayını göstərir.*

## DİM-lərə töhfə

**Büdcədə payı**




**Fəaliyyətlərdə payı**









BMT qurumları

Food and Agriculture Organization of the United Nations · International Labour Organization · IOM UN MIGRATION · UNDP · UNHCR The UN Refugee Agency · unicef for every child

Dual peşə təhsili və təlimi proqramının məzunu Rufanə Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində öyrəndiyi üzlük dizaynı üzrə istedadını fəxrlə nümayiş etdirir

Fotonun müəllifi: BMTİP/Məmməd Əliyev/2023

NƏTİCƏ 1.1

# İNKLUZİV ARTIM VƏ LAYİQLİ ƏMƏK

Kənarda qalan insanlar əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır

2023-cü ildə BMT iş yerlərinin yaradılmasının təşviqinə, əmək bazarı göstəricilərinin yaxşılaşdırılmasına, mikro, kiçik və orta müəssisələrə (MKOM), peşə təhsili və təliminə, kənd ərazilərində dəyər zəncirinin inkişafına məqsədyönlü dəstəyin təmin edilməsinə yönələn proqramlar çərçivəsində milli tərəfdaşlarla işləməyə davam edib.

## MKOM-lar və qadınların səlahiyyətlərinin artırılmasına dəstək

BMT məşğulluğun əsas təkanverici qüvvəsi olan MKOM-ların yaradılmasına və dayanıqlılığının saxlanılmasına kömək edib. Məsələn, 11 rayonda əlilliyi olan 184 nəfər öz biznesini qurmaq üçün lazımi alət, avadanlıq və mal-qara ilə təmin olunub. Qadınların rəhbərlik etdiyi 82 MKOM yaradılıb (48-i gender əsaslı zorakılığa məruz qalmış qadınlar və insan alverinə həssas vəziyyətdə olan qadınlar tərəfindən).

Qadın Resurs Mərkəzləri (QRM-lər) gender bərabərliyini təbliğ etməyə və inklüziv və dayanıqlı inkişafı dəstəkləməyə davam edib. 15 mərkəz, o cümlədən, İcma Resurs Mərkəzləri münaqişənin təsirinə məruz qalmış rayonları da əhatə etməklə 7600 üzv cəlb edib. 4 rayonda 926-dan çox kəndli qadın iqtisadi fəaliyyətlərlə məşğul olmaq üçün peşə bacarıqlarına yiyələnib və onların 46%-i hazırda işləyir.

Peşə Təhsili üzrə Dövlət Agentliyi və Bərdə Peşə Liseyi ilə tərəfdaşlıq yolu ilə, 4 rayonda 360 qadın bərbərlik, dərzilik, arıçılıq, kargüzarlıq və ilkin mühasibat uçotu ixtisasları və kompüter bacarıqları üzrə kurslardan faydalanıb.

BMT ən həssas vəziyyətdə olan qaçqınların səlahiyyətlərinin artırılmasına dəstək göstərib: 25 nəfər (12-si qadın olmaqla) məşğulluq imkanları ilə təmin olunub, 46 gənc (38-i qadın) bacarıqlar üzrə təlimlərdən keçib, 280 nəfər (42%-i qadın) pul yardımı ilə təmin olunub.

2023-cü ildə DİM-lərə töhfə (büdcənin %-i)




2023-cü ildə gender bərabərliyinə töhfə (xərclərin %-i)




2023-cü ildə büdcə

İcra: 92%

Büdcə (ABŞ dolları) 7,979,191

Xərc (ABŞ dolları) 7,316,073



**1,286**
**QADININ**
peşə bacarıqları gücləndirilib (140 gender əsaslı zorakılığa məruz qalmış qadınlar)



**20**
**ÖZƏL ŞİRKƏT**
Qadınların Səlahiyyətlərinin Artırılması Prinsiplərini (QSP-lər) imzalayıb



**6,128**
**FERMER**
meyvəçilik və tərəvəzçilik üzrə rəqəmsal məlumatlar bazasında qeydiyyatdan keçib



Natiqin fındıqçılıq təsərrüfatı təkmilləşdirilmiş metodlar sayəsində böyüyür, məhsul yığımı artır
Fotonun müəllifi: FAO/Şahin Hüseynzadə/2023

BMT KİTABXANASI
**YÜKLƏ!**




PANDEMİYADAN SONRAKI AZƏRBAYCANDA RƏQƏMSAL PUL KÖÇÜRMƏLƏRİ: TƏLƏB VƏ TƏKLİF TƏRƏFLƏRİNİN TƏHLİLİ

## Kənd yerlərində yaşayış və kənd təsərrüfatı

Kənd təsərrüfatı sektorunda potensialın gücləndirilməsi tədbirləri kartofçuluq və fındıqçılıq üzrə dəyər zəncirləri və heyvandarlıq sektorlarında təcrübələrin genişləndirilməsinə yönəlib. BMT xəstəliksiz kartof toxumu istehsalı, kartof sortlarının sınağı və toxumların sertifikatlaşdırılması üzrə potensialları gücləndirib. Tərəfdaşlarla hərtərəfli işlərin aparılması beynəlxalq qayda və standartlar əsasında toxumun sertifikatlaşdırılmasına dair qanunvericiliyin yenilənməsinə töhfə verib.

Bura öyrədici materialların nəşri, habelə 15 min metrik ton xəstəliksiz kartof toxumu istehsalına imkan verən qabaqcıl kənd təsərrüfatı təcrübələri ilə yaxından tanış olmaq üçün Macarıstan və Türkiyəyə təlim səfərləri daxil olub. İxrac emalı və sərhəd nəzarəti çərçivəsində Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasına uyğun olaraq fitosanitar yoxlama və diaqnostika xidmətləri, eləcə də laboratoriya işçiləri üçün potensial artırılıb.

Heyvandarlıq sektoruna gəldikdə, müasir qoyunçuluq təcrübələri sahəsində milli potensialların gücləndirilməsi və dəyər zənciri boyu yemləmə, sağma və emalın idarə olunmasının yaxşılaşdırılması yolu ilə məhsuldarlıq artırılıb. Yetişdirmə strategiyalarının hazırlanması və reproduktiv təcrübələrin yaxşılaşması bu nailiyyətlərə töhfə verib. Bundan əlavə, Ağdam və Balakəndə iki süd emalı müəssisəsi yaradılıb (hər biri aydın biznes, idarəetmə və mülkiyyət planlarına malik olmaqla) və 6 fermer sahə məktəbi və heyvandarlıq üzrə 6 biznes məktəbi təşkil olunub.

BMT həmçinin, fındıqçılıq sektorunda məhsuldarlığın artırılması və keyfiyyətin yaxşılaşdırılması üçün kiçik təsərrüfat sahiblərinin potensialının gücləndirilməsinə töhfə verib. Yerli informasiya-məsləhət xidmətləri ilə əməkdaşlıq şəraitində, 1000-ə yaxın benefisiar (30%-i qadınlar) fındıqçılığın idarə olunması üçün nümunəvi kənd təsərrüfatı təcrübələri üzrə təlimdən keçib. 100 yerli ərzaq məhsulunun marketinqini və təbliğini asanlaşdırmaq və onları vahid kimlik altında birləşdirmək üçün xüsusi marka yaradılıb.

BMT-nin dəstəyi ilə meyvəçilik və tərəvəzçilik dəyər zənciri üzrə məlumatlar bazası yenilənib və 6128 fermer orda qeydiyyatdan keçib. Bu məlumatlar bazasının köməyilə 110 fermer, o cümlədən 24 qadın emal şirkətləri ilə əməkdaşlıq əlaqələri qurub. Bundan əlavə, aqrar kredit və investisiyalara olan cari və gələcək tələbatı təhlil etmək və kənd təsərrüfatı maliyyəsi üçün şəraiti anlamaq üçün hərtərəfli qiymətləndirmə aparılıb. Təqdim olunmuş tövsiyələr Aqrar Kredit və İnkişaf Agentliyinin fəaliyyətinin effektivliyini və səmərəliliyini yaxşılaşdırmağa kömək edəcək.

## Gənclərlə iş

2023-cü ildə BMT-nin öz fəaliyyətinə gəncləri kollektiv şəkildə cəlb etməsinə imkan yaratmaq üçün BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası yenidən canlandırıldı. 17 gənc (15-29 yaşlı), o cümlədən 10 qadın, 2 əlilliyi olan şəxs və regionlardan 5 gənc BMT sisteminə, onun strategiya və proqramlarına gənclərin baxışlarının inteqrə edilməsi barədə məsləhət vermək üçün seçilib. Bundan əlavə, təməl bacarıqların aşılanmasına yönələn "Əsas həyat bacarıqları" proqramı daha 9 Gənclər Evində icra olunmağa başlayaraq, 15 Gənclərin İnkişaf və Karyera Mərkəzi, 32 Gənclər evi və 1 texniki-peşə təhsili institutunu əhatə edib. Bu qeyri-formal təlim təşəbbüsü 2023-cü ildə 21720 gənci (47 faizi qızlar) əhatə edib.

BMT həmçinin, 35 ölkədən 250 gəncin bir araya gəldiyi Avropa Gənclər Parlamentinin 99-cu Beynəlxalq Sessiyasına dəstək göstərib. Tədbirin sessiyalarından biri "Gələcək üçün DİM-lər" mövzusuna həsr olunub və dayanıqlı gələcəyin qurulmasında təhsilin vacib roluna dair dialoqları ehtiva edib. Bundan əlavə, BMT 10-24 yaşlı gənclər üçün sosial innovasiya akseleratoru olan "Upshift" proqramını həyata keçirməyə başlayıb və artıq təlimçilərin ilk qrupu təlimdən keçib.

Bundan əlavə, BMT münaqişədən sonrakı bərpa və yenidənqurma səylərinə müsbət töhfə vermək üçün 630 gəncin partlayıcı sursat risklərinə dair maarifləndirmə, icma quruculuğu və psixi sağlamlıq və intiharın qarşısının alınması üzrə potensiallarını artırıb.




BMT, xüsusilə piyada əleyhinə minalar və müharibənin partlayıcı qalıqlarından zərər çəkmiş ərazilərdəki məktəblərdə partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə aparır

Fotonun müəllifi: UNICEF/2023



**1,993**

**QAÇQIN VƏ SIĞINACAQ**

axtaran şəxs (60%-i qadın) ərzaq yardımından faydalanıb



**1,600**

**NƏFƏR**

(27%-i qadın) kənd təsərrüfatı üzrə təlim keçib

## Əmək hüquqları və maliyyə inklüzivliyi sahələrində irəliləyiş

BMT-nin dəstəyilə, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təlim və müştərilərlə əlaqələrin idarə olunması (CRM) üzrə yerli onlayn platformalar yaratmaq və idarə etmək potensialı gücləndirilib.

BMT həmçinin, “Məcburi əməyin ləğv edilməsi haqqında” 105 nömrəli Beynəlxalq Konvensiyanın tətbiqinə texniki dəstək göstərib və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının ədalətli keçid və həmkarlar ittifaqlarının müasirləşdirilməsi üzrə potensiallarını gücləndirib. Bundan əlavə, BMT Azərbaycanda miqrantlar və pul köçürmələrinin alıcıları arasında rəqəmsal maliyyə xidmətlərindən istifadənin və maliyyə inklüzivliyinin artırılmasına töhfə verib. “Pandemiyadan sonrakı Azərbaycanda rəqəmsal pul köçürmələri: tələb və təklifin təhlili” , “Maraqlı tərəflərin təhlili və xəritələşdirilməsi” hesabatları və “Azərbaycan Respublikasında rəqəmsal pul köçürmələrinin qəbulunun artırılması” yol xəritəsi təqdim olunub.

Bu sənədlərdə təqdim olunan tövsiyələr Dövlət Miqrasiya Xidmətinin Miqrantların İnteqrasiyası Strategiyasının hazırlanmasına töhfə verəcək “2023-2026-cı illər üçün Maliyyə inklüzivliyinin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın layihəsinə (Mərkəzi Bank tərəfindən hazırlanıb) daxil edilib.



## Ümid Hekayəsi

### Sərhədləri aşarkən: Zabihulla Qəmbərinin keçdiyi yol

Əfqanıstandan qaçqın düşən Zabihulla Qəmbəri 2020-ci ilin əvvəlində Azərbaycana gəldi. İbtidai və orta təhsilini Əfqanıstanda başa vurmuş Zabihullanın qarşısında yeni ölkəyə uyğunlaşmaq və yeni bir dil öyrənmək kimi çətin bir tapşırıq dururdu.

Dil əngəli böyük çətinlik yaratsa da, o, qarşısına məqsəd qoymuşdu. Gərgin əmək və qətiyyətliliyi sayəsində o, cəmi 5 ay ərzində Azərbaycan dilini orta səviyyədə öyrəndi. “Yeni ölkəyə köçmək çətin olsa da, qətiyyətli olduqda hətta dil əngəlinin öhdəsindən gəlmək mümkündür”, - deyə Zabihulla bildirir.

Bu gün o, həyatını stabil hesab edir. O öz təhsilinə köklənir, bakalavr dərəcəsi almağı hədəfləyir və gələcək üçün qarşısına məqsədlər qoyur. O, 2022-ci ildə DAFI (Qaçqınlar üçün Albert Eynşteyn adına Akademik Təşəbbüs) təqaüd proqramına qəbul edildiyi üçün BMT-yə minnətdardır. Zabihulla deyir ki, “Bu dəstək olmasa, bakalavr təhsili almağa maddi imkanım çatmazdı”.

DAFI proqramı meyarlara cavab verən qaçqın tələbələrə sığınacaq aldıqları ölkədə bakalavr dərəcəsi əldə etmək imkanı təqdim edir. 2023-cü ildə 52 qaçqın tələbə (25-i qadın) təqaüd dəstəyi vasitəsilə, ali təhsil almaq imkanı qazanıb.



BMT qurumları

BMT uşaqlar üçün peyvəndləmə kampaniyasına rəhbərlik edərək, gələcək nəsillər üçün sağlamlığın keşiyində durur

Fotonun müəllifi: ÜST/Əhməd Muxtar/2023

NƏTİCƏ 2.1

# GÜCLÜ İNSTİTUTLAR, KEYFİYYƏTLİ DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏR

Kənarda qalan insanlar Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilmiş milli potensial və idarəçilik strukturlarından faydalanır

## Münaqişədən sonrakı bərpa tədbirləri

2023-cü ildə Azərbaycan Hökumətinin müraciətinə cavab olaraq, Avropa İttifaqı, BMT və Dünya Bankı Ağdam, Füzuli və Cəbrayıl rayonlarında Bərpa Ehtiyaclarının Birgə Qiymətləndirilməsini (BEBQ) həyata keçirib. Qiymətləndirmə dörd əsas istiqamətə yönəlib: 1) institusional dəstək və inklüziv planlaşdırma; 2) sosial xidmətlər və dayanıqlı qayıdış; 3) davamlı iqtisadi inkişaf; 4) ətraf mühitin bərpası və dayanıqlı enerji transformasiyası. Qiymətləndirmə bərpa və yenidənqurma ehtiyaclarının təhlilinə əsaslanıb və qısamüddətli (2024-cü ilədək), ortamüddətli (2026-cı ilədək) və uzunmüddətli (2030-cu ilədək) dövr üçün prioritetləri müəyyənləşdirib.

BMT Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) texniki təcrübə, avadanlıq, potensialın inkişaf etdirilməsi və maliyyə resursları ilə dəstək göstərməklə, Azərbaycanda minatəmizləmə işlərinə töhfə verməyə davam edib. 2023-cü ildə əsas diqqət "Minasız Cənubi Qafqaz" kampaniyası vasitəsilə mina problemi barədə beynəlxalq məlumatlılığın artırılmasına yönəlib. 2020-2023-cü illərdə bütün Azərbaycanda 90408 partlayıcı qurğu və 869 partlamamış sursat zərərsizləşdirilib. 2023-cü ildə Bakıda və Ağdamda "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda 2-ci beynəlxalq humanitar minatəmizləmə konfransı keçirilib. Hökumət Minatəmizləmə üzrə 18-ci milli DİM-in qəbulunu elan edib və Minatəmizləmə üzrə Bəyannamə qəbul edib. Bəyannamə mövcud beynəlxalq alətlərə qoşulmağa və onları tam icra etməyə, mövcud tərəfdaşlıqları gücləndirməyə və yeni platformalar yaratmağa çağırıb.

Bundan əlavə, BMT məcburi köçkünlərə dəstəyini davam etdirib. Mingəçevir, Yevlax və Goranboyda yaradılmış 6 icma mərkəzi 372 məcburi köçkünə (52%-i qadın) yardım edib. 7557 məcburi köçkün (48%-i qadın) içməli və ya suvarma suyunun yaxşılaşdırılması, avtobus dayanacaqlarının inşası, kanalizasiya borularının bərpası, yol tikintisi və ya təmiri ilə bağlı mikrolayihələrdən faydalanıb.

2023-cü ildə DİM-lərə töhfə (büdcənin %-i)




2023-cü ildə gender bərabərliyinə töhfə (xərclərin %-i)




2023-cü ildə büdcə

İcra: 93%

Büdcə (ABŞ dolları) 21,804,729

Xərc (ABŞ dolları) 20,268,700



**7,557**

**MƏCBURİ KÖÇKÜN**

(48%-i qadın) mikrolayihələrdən faydalanıb



**1,784**

**NƏFƏR**

Füzuli, Tərtər və Ağcabədi rayonlarının 20 kəndində yaşayış vasitələri üçün dəstəklə təmin olunub



**275**

**MINA RISKI BARƏDƏ MƏLUMATLILIQLA BAĞLI BILBORD**

ictimai maarifləndirmə məqsədilə quraşdırılıb

**Minatəmizləmə üzrə Bəyannamədən çıxarış:**

*Minasız dünyaya nail olunması naminə biz – "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda keçirilən 2-ci Beynəlxalq Konfransın iştirakçıları olaraq,*

- *Humanitar minatəmizləmə fəaliyyətinin minalarla çirklənmiş ölkələrdə dayanıqlı inkişafın, DİM-lərə nail olunması istiqamətində irəliləyişin, sülh proseslərinin sürətləndirilməsinin və sülhün qorunmasının ilkin şərtlərindən biri olduğunu qəbul edərək;*
- *"Piyada əleyhinə minaların istifadəsi, yığılması, istehsalı və ötürülməsinin qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya" ("Ottava Konvensiyası") və "Kasetli sursatlar haqqında Konvensiya" ("Oslo Konvensiyası") da daxil olmaqla, minaların və PHS-nin istifadəsini tənzimləyən və ya qadağan edən mövcud beynəlxalq hüquqi sənədlərin prinsip və dəyərlərini qəbul edərək, eyni zamanda hamını bu sənədlərə rəsmi riayət olunması istiqamətində addımlar atmağa təşviq edərək; mina təhlükəsi ilə qlobal mübarizə fəaliyyətlərini sürətləndirmək üçün qətiyyətli addımların atılmasında razılaşırıq.*

Könüllü gənc istirahət fəaliyyətləri vasitəsilə sığınacaqdakı uşaqlara sevinc bəxş edir
Fotonun müəllifi: BMqT/Rüfət Zəkizadə/ 2023



## İnklüziv təhsil

BMT əlilliyi olan uşaqların keyfiyyətli inklüziv təhsilə çıxışını artırmaq üçün Hökumətlə əməkdaşlıq edərək, inklüziv məktəblərin sayını 22-dən 40-a çatdırıb. Bu məktəblərdə 120 qız daxil olmaqla, əlilliyi olan 250 uşaq təhsil alır. 840-dan çox məktəb müəllimi, məktəb rəhbərləri və psixoloqları bütün uşaqlara, xüsusilə əlilliyi olan uşaqlara keyfiyyətli inklüziv təhsil təqdim etmək üçün inklüziv təhsil üzrə təlimdən keçib. İnklüziv məktəblərdə çalışan 120 müəllim fasiləsiz peşəkar inkişaf çərçivəsində mentorluq proqramında iştirak edib. 1000-dən çox uşaq, valideyn, məktəb işçiləri və yerli icma üzvləri gender və əlilliklə bağlı stiqma, stereotip və mənfi sosial normaların aradan qaldırılmasına istiqamətlənən məktəb və icma tədbirlərində iştirak edib. Erkən uşaqlıq dövründə təhsil və qayğının maliyyələşdirilməsinə dair əhatəli tədqiqatın aparılmasına başlanılıb. Tədqiqat başa çatdıqdan sonra məktəbəqədər təhsil xidmətlərini səmərəli şəkildə maliyyələşdirmək üçün mümkün siyasət seçimləri və həllərini əks etdirən aydın və hərtərəfli yol xəritəsi təqdim ediləcək.

## Peşə təhsili

BMT texniki təcrübə, bacarıqlar üzrə təlimlər və tərəfdaşlıq imkanları təmin etməklə peşə təhsili sahəsində potensialları gücləndirməyə davam edib. Peşə Təhsili üzrə Dövlət Agentliyi 66 təhsil müəssisəsində 128 ixtisas üzrə 25420 yer təklif etməklə bu istiqamətdə potensialını 10% artırıb. Peşə təhsili mərkəzlərini müasirləşdirmək və həm peşə təhsili, həm də özəl sektordan olan maraqlı tərəflər üçün potensialın gücləndirilməsi tədbirlərini təşviq etmək üçün 26 dövlət-özəl tərəfdaşlığı qurulub. 570-dən çox müəllim, mentor, xüsusi pedaqoq, tələbə və 28 işəgötürənin nümayəndələri əmək bazarının ehtiyaclarına uyğunlaşmaq üçün peşə təhsilinin gücləndirilməsi üzrə təlimlərdən faydalanıb. Dual peşə təhsili və təlimi proqramlarının 150-dən çox məzunu (60 qadın) iş tapıb.

## Kənd təsərrüfatı sahəsində təhsil

2023-cü ildə ADA Universitetində Kənd təsərrüfatı və qida elmi fakültəsi yaradılıb və Bakı kampusunda, Qazax və Gəncədəki regional mərkəzlərində tədris olunacaq. Burada bakalavr və magistr dərəcələri, eləcə də kənd təsərrüfatı və qida sahələrində dərəcəsiz sertifikat proqramları təqdim olunacaq. BMT akademik proqramların yaradılması və aqro-ərzaq sistemləri üzrə tematik seminarların və potensialın gücləndirilməsi üzrə tədbirlərin təşkil edilməsində universitetlə əməkdaşlıq edəcək. Bununla yanaşı, 2023-cü ildə Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) ilə əməkdaşlıqda "Kənd təsərrüfatı sektorunda elm və innovasiyaların rolu" mövzusunda forum keçirilib. Hazırda kənd yerlərinin inkişafı, dayanıqlı dəyər zəncirləri, torpaqların idarə olunması, əkinçilik və baytarlıq xidmətləri sahələrində bilik mübadiləsi və əməkdaşlığı artırmaq üçün Anlaşma Memorandumu hazırlanmaqdadır.




## Ümid Hekayəsi

### Gözləntiləri aşmaq: Aytən İsmayılovanın stereotipləri qıraraq keçdiyi yol

"Mənim adım Aytəndir və mən Azərbaycanda ilk minatəmizləyən qadınlardan biriyəm", - deyə Azərbaycanın şimal-qərbində yerləşən Qazax rayonundan olan gənc Aytən İsmayılova fəxrlə vurğulayır.

Mina Məsləhət Qrupunun (MAQ) beynəlxalq ekspertləri tərəfindən keçirilmiş nəzəri və praktiki təlimlər sayəsində qadın minatəmizləyənlərdən ibarət ilk qrup minaların və partlamamış hərbi sursatların tanınması, aşkarlanması və işarələnməsi üçün əsas bilik, bacarıq və tələb olunan davranış, o cümlədən ilk yardımın göstərilməsi qaydalarına yiyələnib. "Ailəm həmişə hərbidə olub.

Mən onların yolunu davam etdirmək istəyirdim. Əmimi müharibədə itirmişəm, əmim oğlu Laçında mina partlayışı nəticəsində xəsarət alıb. ANAMA-nın qadın minatəmizləyənləri işə götürdüyünü ilk eşidəndə müraciət etmək istədim", - deyə Aytən bildirir. O əlavə edir: **"Əvvəlcə çox çətin idi. Keçdiyimiz davamlı təlimlər sayəsində öz işimi ən yaxşı şəkildə yerinə yetirmək üçün özümü getdikcə daha inamlı hiss edirəm".**

DAHA ƏTRAFLI BURADAN OXUYUN

## Sağlamlıq üçün təhsil

Təcili tibbi yardım sahəsində beynəlxalq səhiyyə təlimatlarına uyğun şəkildə potensialın gücləndirilməsi ilə bağlı zərurətin təciliiliyini nəzərə alaraq, Azərbaycan Tibb Universitetinin tədris heyəti BMT-nin dəstəyi çərçivəsində təcili tibb təhsili üzrə kurasiya proqramının kurikulumunun yaradılması üzrə təlimdən keçib. BMT həmçinin, Avropa Regionunda İctimai Səhiyyə Fakültələrinin Assosiasiyasının (ASPHER) qabiliyyət çərçivəsi əsasında, tibb təhsili alan yuxarı kurs tələbələri və tədris heyəti üzvlərinin ictimai səhiyyə bacarıqlarını qiymətləndirmək üçün sorğu aparıb. Nəticələr təlim ehtiyaclarını müəyyən etmək, kurikulumun hazırlanması üçün məlumat əsası təmin etmək və ictimai səhiyyə sahəsində təhsilin gücləndirilməsinə töhfə vermək üçün istifadə ediləcək.

## Ana və uşaq sağlamlığı

Universal-mütərəqqi ev ziyarəti proqramı pilot qaydada uğurla tətbiq olunduqdan sonra, genişləndirilərək daha 10 rayonda tətbiq olunmağa başlayıb. Nəticədə proqram ölkə miqyasında 46321 ailəni, o cümlədən 0-3 yaşlı 67337 uşağı (əlilliyi olan 311 uşaq) və 11993 qadını əhatə edib. Model, ana və uşaq xidmətləri üçün gender aspektləri baxımından transformativ (ataların uşağa qulluq işinə cəlb olunması vasitəsilə) və gender aspektlərini nəzərə alan (ana sağlamlığı ilə bağlı ehtiyacların prioritetləşdirilməsi vasitəsilə) yanaşma tətbiq edir. Bundan əlavə, BMT hamilə qadınlara və yeni ana olan qadınlara gender aspektlərini nəzərə alan xidmətlərin təqdim olunması üçün illik təqribən 16700 doğuşun həyata keçirildiyi 10 doğum evində "Körpə Dostu Xəstəxana Təşəbbüsü"nün canlandırılmasına dəstək göstərib. Həmçinin, ölkənin müxtəlif yerlərindən 600 tibb işçisi Ümumdünya Ana Südü ilə Qidalandırma Həftəsində iştirak edib.

## İlkin səhiyyə xidmətinə dəstək

Təcili yardım sistemini, fövqəladə tibbi vəziyyətlərə hazırlıq və cavab tədbirlərini gücləndirmək üçün tibb işçiləri təməl həyata dəstək və təkmil kardiovaskulyar dəstək üzrə təlimlərdən keçib. Sabunçu, Səbail, Gəncə, Masallı və Astara rayonlarında seçilmiş gigiyena və epidemiologiya mərkəzlərinin əsas ictimai səhiyyə funksiyalarının yerinə yetirilməsi üzrə institusional potensiallarını müəyyənləşdirmək və tələb olunan struktur yönümlü və funksional islahatları müəyyən etmək üçün onların qiymətləndirilməsi həyata keçirilib. Xəstəxanalar üçün infeksiyaların qarşısının alınması və onlarla mübarizə üzrə hərtərəfli təlimatlar zərfi hazırlanıb.

## İmmunlaşdırma və vaksinasiya

Peyvəndlə əhatə səviyyəsini yaxşılaşdırmaq məqsədilə, Azərbaycanda immunlaşdırma üzrə informasiya sistemi qiymətləndirilib və tövsiyələri də özündə əks etdirən yol xəritəsi hazırlanıb. Bununla yanaşı, milli immunlaşdırma təlimatları hazırlanıb və peyvəndə tələbatın proqnozlaşdırılması və satın alınması üzrə milli potensiallar artırılıb. Müsbət vaksinasiya davranışlarına mane olan və şərait yaradan amilləri anlamaq üçün tibb işçiləri, valideynlər və uşaq peyvəndlərinin verilməsinə cəlb olunan mərkəzi/regional maraqlı tərəflərin iştirakı ilə keyfiyyət əsaslı tədqiqat aparılıb. Planlı uşaq peyvəndlərinin uğurla mənimsənilməsini təmin etmək üçün göstərilən milli səyləri dəstəkləmək məqsədilə, 6 yaşadək uşaqlar arasında peyvəndlə əhatə səviyyəsinin ən aşağı olduğu 4 rayon və 2 şəhərdə tibb işçilərinin potensialları gücləndirilib. Peyvəndlə əhatə səviyyəsinin ən aşağı olduğu Mingəçevir, Qobustan, Göygöl və Yevlax rayonlarında müştərək BMT kampaniyası çərçivəsində Avropa İmmunlaşdırma Həftəsi ərzində, peyvəndlərini ötürmüş 3300-dən artıq uşağa müvafiq peyvəndlər verilib. Həmçinin, immunlaşdırmadan sonra baş verən hər hansı mənfi hadisəni aşkar etmək, cavab tədbirləri görmək, səbəbini qiymətləndirmək və ictimaiyyətə effektiv şəkildə məlumat vermək üçün mənfi hadisələrin müşahidəsi üzrə milli siyasətlərin yenilənməsi üçün potensiallar gücləndirilib. Media mütəxəssislərinin vaksinasiya, xüsusilə onun əhali sağlamlığına təsirinə dair yanlış məlumatları və dezinformasiyanı aşkar etmək və onlarla mübarizə aparmaq bacarıqlarını gücləndirmək üçün infodemiyanın idarə olunması üzrə təlimlər keçirilib. Azərbaycan Hökuməti həmçinin, immunlaşdırma üçün şəxslərarası ünsiyyət üzrə milli kurrikulumların qiymətləndirilməsinə dair tədqiqata cəlb edilib.

2023-cü ilin payızında qızılca xəstəliyin alovlanması fonunda, BMT Hökumətə texniki dəstək göstərib, o cümlədən prioritet cavab tədbirləri və rəqəmsal platformalar vasitəsilə maarifləndirmə kampaniyalarının aparılması və risklər barədə məlumatlandırmanın icrasına dair məsləhətlər verib.




Lənkəran sakini psixoloqla görüşərək xüsusən psixi sağlamlıqla bağlı stiqma fonunda psixososial dəstəyi müzakirə edir

Fotonun müəllifi: ÜST/Cavid Qurbanov/2023



**250**
**DƏN ÇOX ƏLİLLİYİ OLAN UŞAQ**
(120 qız) inklüziv təhsilə çıxış imkanı əldə edib

**372**
**QAÇQIN VƏ SIĞINACAQ AXTARAN UŞAQ**
(158 qız) ibtidai və ya orta təhsil alıb

**358**
**TƏLƏBƏ**
dual peşə təhsili və təlimi proqramlarına qoşulub



## Ümid Hekayəsi

### Dərzilikdən müəllimliyədək: Özcan İbrahimovun keçdiyi yol

18 yaşlı Özcan İbrahimov eyni zamanda həm istedadlı dərzi, həm müəllim köməkçisi, həm də öz zəhməti sayəsində püxtələşmiş yazıçı və öz sevimli peşəsindən pul qazanan bir gəncdir.

Özcan BMT-nin dəstək göstərdiyi Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində təhsil alır. O, dərzi ixtisası üzrə üç illik təhsilini başa vurub və hazırda şəhərin tanınmış geyim mağazalarından birində "biçimçi" kimi çalışır. "Mən yeni tərz, yeni bir dizayn yaratmağı sevirəm, bu sənətin ən yaxşı cəhəti isə hər şeyin sizdən asılı olmağıdır.

Nə istəsəniz, yarada bilərsiniz", -deyə vurğulayır. O əlavə edir: **"Yaşıdlarıma öz şəxsi təcrübəmdən yola çıxaraq deyə bilərəm ki, hər kəs sevdiyi işi görməlidir".**

DAHA ƏTRAFLI BURADAN OXUYUN

**7,867**

**İİV-LƏ YAŞAYAN ŞƏXS**

müalicəyə çıxış əldə edib

**2,852**

**MƏCBURİ KÖÇKÜN, QAÇQIN VƏ SIĞINACAQ AXTARAN ŞƏXS**

(1416-ı qadın) göz müayinəsi və eynək yardımı alıb

**12,000**

**HAMİLƏ QADIN**
**və 67000 uşaq**

ev ziyarətlərindən faydalanıb

**926**

**QAÇQIN VƏ SIĞINACAQ AXTARAN ŞƏXS**

(458-i qadın) səhiyyə xidmətləri və ya dərman təminatından faydalanıb

## Uşaqların sosial müdafiəsi

BMT Azərbaycan Milli Uşaq Qaynar Xəttinin xidmətlərini təbliğ etməyə, uşaqların və ailələrin uşağa qarşı zorakılıq, habelə zorakılıq hadisələri barədə müvafiq orqanlara məlumat verməə və peşəkar yardım alma barədə məlumatlılığını artırmağa davam edib. 2023-cü ildə Uşaq Qaynar Xəttinə daxil olan zənglərin/müraciətlərin sayı 4453 olub. Zənglərin 28%-i uşaqların özləri tərəfindən edilib və 25%-i uşaqlara qarşı zorakılığı ehtiva edibş 2020-ci ildə bütün zənglər arasında uşaqlara qarşı zorakılıqla bağlı zənglərin payı cəmi 0.9% olub. Uşaqlara qarşı zorakılıq, o cümlədən gender əsaslı zorakılıq hallarını müəyyən edən, məlumat verən və cavab tədbirləri görən Uşaq Müdafiəsi və Təhlükəsizliyi sistemi Bakı və əlavə 3 rayonda 51 məktəbdə tətbiq olunmağa başlayaraq, 52 mindən yuxarı uşaq üçün məktəblərdə uşaq müdafiəsinə çıxış imkanı yaradıb və il ərzində uşaq müdafiəsi və təhlükəsizliyi ilə bağlı 422 hal qeydə alıb.

Yüksək riskli vəziyyətlərin məktəblərdən sosial xidmətlərə yönləndirilməsi vasitəsilə, pilot məktəblərə icma əsaslı sosial xidmətlərin inteqrasiya edilməsində də irəliləyiş əldə olunub. Bundan əlavə, uşaqlara qarşı zorakılığın qarşısının alınması üzrə milli qanunvericiliyin yenilənməsinə dair təkliflər qrupu hazırlanıb və Nazirlər Kabinetinə təqdim edilib. Sənədin nəzərdən keçirilməsi və yekun təsdiq üçün Milli Məclisə göndərilməsi nəzərdə tutulub.

## Həssas qruplar üçün sosial müdafiə

İnsan alverinə və gender əsaslı zorakılığa məruz qalanlara yardım edən 7 vətəndaş cəmiyyəti təşkilatından 23 nümayəndənin (19-u qadın) psixi sağlamlıq və psixososial dəstək üzrə bacarıqları və anlayışları gücləndirilib.

263 hökumət nümayəndəsi və hakim, beynəlxalq standartlara əsasən qaçqın statusunun müəyyənləşdirilməsi və sığınacaq və miqrasiya məsələləri ilə bağlı təlimdən keçib.

BMT tərəfindən miqrantlar üçün saxlama mərkəzinə və qaçqın statusunun müəyyənləşdirilməsi idarəsinə monitorinq ziyarətləri mövcud metodları və prosedurları qiymətləndirməyə və müvafiq məsləhətlər təmin etməyə kömək edib. Hüquq-mühafizə orqanlarının əməkdaşlarının sərhəd-keçid məntəqələrində mürəkkəb vəziyyətlərin həssaslıqla və səmərəli şəkildə idarə edilməsinə dair məlumatlılığı artırılıb.

Vətəndaşsızlıqla bağlı regional konfransda Azərbaycanın vətəndaşsızlığın azaldılması və qarşısının alınması sahəsində nümunəvi səyləri və qabaqcıl təcrübələri vurğulanıb və təqdir olunub. Konfrans həmçinin, regiondakı digər ölkələrin təcrübələri və qarşılaşdığı çətinliklərlə tanış olmaq imkanı yaradıb.

## Əlilliyi olan şəxslərin inklüziv cəlbinin gücləndirilməsi

2023-cü ilin mayında BMT-nin Əlilliyi olan Şəxslərin İnklüziv Cəlbi üzrə Strategiyasının icrasını yaxşılaşdırmaq və onun əsasında praktiki tədbirlər həyata keçirmək üçün Əlilliyi olan şəxslərin İnklüziv Cəlbi üzrə İşçi Qrupu yenidən canlandırılıb. BMT aprel ayında "Güvən yürüşü" təşkil etmək və inklüziv cəmiyyət quruculuğu barədə məlumatlılığı artırmaq üçün ADA universiteti və "Şəfqət Boşluğu" tələbə təşəbbüsü ilə tərəfdaşlıq edib. Bundan sonra BMT Günü münasibətilə əlilliyi olan şəxslərin inklüziv cəlbi ilə bağlı "Güvən Yürüşü" formatında kampaniya təşkil edilib. Bu kampaniya və eyni zamanda Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində, əlilliyi olan aparıcılar və kütləvi incəsənət ifaçılarını dəvət etməklə əlilliyi olan şəxslərin inklüziv cəlbini təşviq edib. Bundan əlavə, əlilliyi olan şəxslərin inklüziv cəlbi Bərpa Ehtiyaclarının Birgə Qiymətləndirilməsinin çoxsahəli komponentlərindən biri olub və Ölkə üzrə Ümumi Təhlildə də əhatə edilib. BMT qurumları maneələri və boşluqları nəzərdən keçirərək BMT və onun inkişaf tərəfdaşları üçün konkret, praktiki tövsiyələr hazırlamaq məqsədilə, "Əlilliyi olan şəxsləri kənarda qoymayan inkişaf üçün çoxsahəli yanaşmalar və ilkin şərtlər" mövzusunda ilkin seminar və vəziyyətin təhlilini aparmaq üçün BMT-nin Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Tərəfdaşlığı (UNPRPD) tərəfindən maliyyələşdirilən təşəbbüsün icrasına başlayıb.

Universal ev ziyarəti modeli ataları uşaqların yetişdirilməsində analarla birgə səy göstərməyə təşviq edir
Fotonun müəllifi: UNICEF/Məmməd Əliyev/2023





**VƏTƏNDAŞLIĞA GEDƏN YOL**

Çoxsaylı çətinliklərin öhdəsindən gəlmiş və Azərbaycan vətəndaşlığı əldə etdikdən sonra həyatları dəyişən və hazırda fəxrlə #MənAidəm deyən keçmiş vətəndaşlığı olmayan şəxslərin ilhamverici hekayələri

## İnsan hüquqları gündəliyi

BMT Vəkillər Kollegiyası, vətəndaş cəmiyyəti təşkilatları (VCT) və Bakı Dövlət Universitetinin hüquq fakültəsi ilə birlikdə həssas vəziyyətlərdə olan şəxslərin mülki işlərdə ədliyyəyə çıxış imkanını yaxşılaşdırmaq üçün tövsiyələr hazırlayıb. Bu tövsiyələrin işlənib hazırlanması üçün 45 maraqlı tərəflə (hakimlər, hüquqşünaslar, Milli Məclisin üzvləri, Ədliyyə Nazirliyi, VCT-lər və akademik qurumlar daxil olmaqla) dörd ictimai müzakirə aparılıb və tövsiyələr Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinə təqdim edilib.

2023-cü ildə BMT, insan hüquqlarını təşviq etmək və qorumaq üçün milli maraqlı tərəflərin BMT-nin insan hüquqları mexanizmləri ilə əlaqədar fəaliyyətləri üzrə potensialını artırmağa davam edib. 830-dan çox vətəndaş cəmiyyəti təşkilatı nümayəndələrinin, penitensiar müəssisələrin əməkdaşlarının, hüquqşünasların, yerli idarələrin, əlilliyi olan şəxslərin təşkilatlarının və jurnalistlərin BMT-nin insan hüquqları mexanizmləri, müqavilə orqanları, Universal Dövri İcmal, işgəncələrin qarşısının alınması, əlilliyi olan şəxslərin hüquqları və həssas əhali qruplarının iqtisadi və sosial hüquqları üzrə bacarıqları gücləndirilib.

Oxumaq üçün klikləyin




ƏHALİNİN HƏSSAS QRUPLARI ÜÇÜN MÜLKİ VƏ İNZİBATİ HÜQUQ SAHƏLƏRİNDƏ HÜQUQİ YARDIM MEXANİZMLƏRİNİN EFFEKTİVLİYİ VƏ SƏMƏRƏLİLİYİNƏ DAİR QİYMƏTLƏNDİRMƏ HESABATI (BMT VƏ AVROPA ŞURASININ STANDARTLARI ƏSASINDA)

Resurs Mərkəzi əlillik, qadın hüquqları və sosial hüquqlar üzrə ixtisaslaşan 8 QHT-dən, o cümlədən gənclər təşkilatlarından 140 iştirakçını cəlb etməklə insan hüquqları ilə bağlı tədbirlərə ev sahibliyi edib. İnsan hüquqlarına dair 800-dən çox tərcümə edilmiş nəşr və maarifləndirici resurs maraqlı tərəflərə paylanıb. 6 rayonda polis, prokurorlar və vəkillər insan hüquqları prinsipləri, xüsusilə də azadlıq və təhlükəsizlik hüququ ilə bağlı məlumatlandırılıb. Beynəlxalq təlimat və tövsiyələrə uyğun olaraq sığınacaq axtaranların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanın ədliyyə sisteminə çıxışını yaxşılaşdırmaq üçün hakimlər, hüquqşünaslar, dövlət orqanlarının nümayəndələri və elm ictimaiyyətinin nümayəndələrinin potensialları gücləndirilib. Hüquq və İnsan Haqları İnstitutu ilə birgə hüquqi bilik və məlumatlara çıxışı asanlaşdıran, pulsuz hüquqi materiallar təqdim edən virtual kitabxana yaradılıb. Mayın 18-dən iyunun 18-dək, BMT Ombudsman Aparatı və Vəkillər Kollegiyası ilə birlikdə 13 rayon və şəhərdə həssas vəziyyətdə olan şəxslər üçün bir aylıq hüquqi yardım kampaniyası təşkil edib. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (ÜİHB) 75-ci ildönümü münasibətilə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsi və BMT-nin Ölkə üzrə İdarə Heyəti birlikdə 30 maarifləndirici video ərsəyə gətirib. Hər biri ÜİHB-nin bir maddəsinə həsr olunan bu videolar BMT-nin Azərbaycandakı qurumlarının sosial media platformalarında paylaşılıb və gənc auditoriyalara yönəlib.



**1,556**
**QAÇQIN**
(630 qadın) sənədlərini təsdiq etdirib



**263**
**DÖVLƏT MƏMURU VƏ HAKİM**
qaçqınlıq, sığınacaq və miqrasiya məsələlərinin idarə olunması üzrə təlimdən keçib



**51**
**MƏKTƏB**
uşaq müdafiəsi və təhlükəsizliyi təcrübələri ilə əhatə olunub

Əlilliyi olan şəxslərin inklüziv cəlbi sahəsində fəaliyyət göstərən gənc fəal Cəmilə Məmmədli 2023-cü il BMT Günündə "Güvən Yürüşü" kampaniyasında əlilliyi olan şəxslərin qarşılaşdığı çətinliklərə aydınlıq gətirir
Fotonun müəllifi: Gənclər Fondu/Məhərrəm Əliyev/2023





### Ümid Hekayəsi
Əngəlləri aşarkən: Saranın inklüziv təhsil təcrübəsi

11 yaşlı Sara Bakı şəhərində təhsil aldığı məktəbdə öz dərslərini və sinif yoldaşları ilə sosiallaşmağı sevir. İdman və gimnastikaya olan marağından əlavə, Sara həm də oxumağı və rəfiqəsi Melisa ilə vaxt keçirməyi xoşlayır. Saranın oxuduğu məktəb Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv təlimin, tədris və inkişaf dəstəyinin təmin olunduğu 40 məktəbdən biridir. Bu dəstək onların heç bir təcridə məruz qalmadan digərləri ilə birgə öyrənməsinə, böyüməsinə və inkişaf etməsinə kömək edir. "Sara da digər uşaqlar kimi eyni maraqlara və arzulara sahibdir", - deyə Saranın anası Nurlana xanım bildirir. Sara doğulanda, Nurlana xanım onun gələcək təhsil imkanları barədə narahat idi. İndi Saranın öz yaşıdları ilə birgə inklüziv məktəbə getməsindən məmnundur. BMT-nin dəstəyilə Elm və Təhsil Nazirliyi inklüziv məktəblərin genişləndirilməsinə rəhbərlik edərək, əlilliyi olan uşaqların öz yaşıdları ilə birgə biliklərə yiyələnməsinə imkan yaradıb. "Bu proqramın təsiri xeyli daha böyükdür", - deyə Saranın anası Nurlana xanım bildirib. O əlavə edib: "Bu, bizim cəmiyyətimizi dəyişdirir, çünki uşaqlar öz siniflərindəki müxtəlifliyi görür və bunu sosial norma kimi qəbul edirlər"

DAHA ƏTRAFLI BURADAN OXUYUN

## Sərhədlərarası təşəbbüslər

BMT riskləri səmərəli şəkildə idarə etmək və davamlılığı artırmaq üçün regionda humanitar yardım və inkişaf üzrə maraqlı tərəflər arasında əməkdaşlığı gücləndirmək məqsədi ilə, əlaqələndirilmiş hazırlıq səylərinə dəstək üçün bir vasitə kimi Cənubi Qafqaz regionu, o cümlədən Azərbaycan üçün submilli INFORM modelini işləyib hazırlayıb. INFORM modelinin əsas funksiyası Azərbaycanda humanitar böhran riski yüksək olan, daha çox beynəlxalq yardım tələb edə biləcək əraziləri müəyyən etməkdir. Bundan əlavə, Ümumdünya Ticarət Təşkilatına qoşulma prosesində Mərkəzi Asiya ölkələrinə, o cümlədən, Azərbaycana rəqəmsal və dayanıqlı ticarətin asanlaşdırılmasını sürətləndirmək üçün irəliləyişi və boşluqları, habelə qabaqcıl təcrübələr və öyrənilmiş dərsləri müəyyən etməyə kömək edən siyasət icmalı hazırlanıb.

## Qida təhlükəsizliyi və ərzaq təminatı

Səmərəli idarəetmə və nəzarət sisteminin yaradılması, texniki potensialın gücləndirilməsi, lazımi avadanlıqların təmin edilməsi, yeni metodologiyaların qəbulu, beynəlxalq sertifikatlaşdırma və bu xidmətlərin onlayn platforma vasitəsilə fermerlərə çatdırılmasının təmin edilməsi vasitəsilə Aqrar Xidmət Agentliyinin və onun aqrokimyəvi laboratoriyalarının, toxum sertifikatlaşdırma mərkəzlərinin və sort sınağı məntəqələrinin potensialları gücləndirilib. 2023-cü il ərzində BMT həmçinin, qida təhlükəsizliyinə nəzarət vasitələri və Codex Alimentarius prosesləri üzrə milli potensialların gücləndirilməsinə xüsusi diqqət yetirib. Qida təhlükəsizliyinə nəzarət sisteminin qiymətləndirilməsinə başlanılıb - bu, ölkədə bənzər mexanizmin yaradılması üçün əsas kimi çıxış edəcək. Ərzaq itkisi və israfının qarşısının alınması və azaldılması strategiyası işlənib hazırlanıb - bu, əhalinin artımı, gəlirlərin artması, urbanizasiya və dəyişən istehlakçı seçimləri kimi amillərin qida sisteminə təzyiqini azaltmaq üçün dairəvi dəyər zəncirinə keçidi təşviq edir.

## Dayanıqlı şəhərsalma

Şəhər və yerli məkanların yenidən layihələndirilməsinə istiqamətlənən "İqtisadi İnkişafı Dəstəkləyən Bələdiyyə Sədrləri" (M4EG) təşəbbüsü çərçivəsində, şəhərsalma proseslərinin idarə olunmasını gücləndirmək və səmərəliliyini artırmaq üçün "Şəhərsalmaya nəzarət üzrə elektron sistem" yaradılıb. Şəhər Təlim Mərkəzi (ULC) yanaşması bələdiyyələrə təqdim olunub. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Xırdalan Bələdiyyəsi infrastrukturun genişləndirilməsinə, ictimai sahələrin yaxşılaşdırılmasına və dayanıqlı şəhərsalmanın təşviqinə yönələn əhatəli yenidən canlandırma planının icrasına başlamaq üçün Şəhər Transformasiyası Portfeli hazırlayıb. Bələdiyyə səviyyəli ilk əmək yarmarkasına 1000-dən yuxarı iştirakçı cəlb olunub və 28 şirkət və təşkilat iştirak edib. Bu, Xırdalanın Şəhər Transformasiya Portfelinin həyata keçirilməsi istiqamətində ilk addım olub. Bundan əlavə, Azərbaycanda şəhər mobilliyini yaxşılaşdırmaq üçün milli fəaliyyət planının layihəsi hazırlanmaqdadır və dayanıqlı ölkədaxili quru nəqliyyatı əlaqələri üçün milli potensialları yaxşılaşdırmaq məqsədilə "LearnITC" platforması milli maraqlı tərəflərə təqdim edilib.

"Dayanıqlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda 800-ə yaxın iştirakçı, o cümlədən 53 ölkədən şəhərsalma ekspertləri, memarlar, şəhər və hökumət nümayəndələri və maraqlı tərəflər iştirak edib. Forum həmçinin, Türk Dövlətləri Təşkilatı ilə dayanıqlı urbanizasiya üzrə yüksək səviyyəli nazirlər görüşünün keçirilməsi üçün platforma təmin edib. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə Ümumdünya Yaşayış Yerlərinin Mühafizəsi Günü 108 ölkədən 1000-dən çox iştirakçının birbaşa və onlayn formada iştirakı ilə Bakıda qeyd olunub. Tədbirdə iqtisadi inkişafın stimullaşdırılmasında və pandemiyadan sonrakı dövrdə bərpa və böhrandan sonrakı yenidənqurma işlərində dayanıqlı şəhərlərin mühüm roluna xüsusi diqqət yetirilib.



Laboratoriya əməkdaşı Beynəlxalq Tropik Kənd Təsərrüfatı İnstitutu ilə müqavilə çərçivəsində fındıqçılıqda çirklənmə və təsirlərin azaldılması üzrə praktiki təlimdə iştirak edir

Fotonun müəllifi: FAO/2023

**831**
**NƏFƏRİN**
(40%-i qadınlar) BMT-nin insan hüquqları mexanizmləri üzrə bacarıqları gücləndirilib

**8,919**
**NƏFƏR**
hüquqi yardımdan istifadə edib

Bakıda və 11 rayonda (Masallı, Bərdə, İmişli, Qəbələ, Şəki, Gəncə, Quba, Mingəçevir, Ağdam, Füzuli, Tərtər) daxil olmaqla 4580 qadın, 173 əlilliyi olan şəxs, 1450 işsiz, 232 yaşlı, 5567 məcburi köçkün, 507 qaçqın və sığınacaq axtaran, 990 vətəndaşlığı olmayan şəxs.




Kiçik addımlarla böyük təsirlər. Burada bir uşaq MICS sorğusu çərçivəsində sahə səfərində iştirak edərək, uşaqların sağlamlığı üçün vacib məlumatların toplanmasına kömək edir.
Fotonun müəllifi: UNICEF/Jalə Rzayeva/2023

# NƏTİCƏ 2.2
# MƏLUMATLARA ƏSASLANAN QƏRAR QƏBULU VƏ SIYASƏTLƏR

## Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün keyfiyyətli, dezaqreqasiya olunmuş və vaxtında təqdim olunan məlumatlar mövcuddur və istifadə edilir

BMT DİM-lər üzrə monitorinq, hesabatverme və məlumatların müyəssərliyini yaxşılaşdırmaq və sübutlara əsaslanan siyasətlərin hazırlanması və qərarların qəbulunu dəstəkləmək üçün institusional potensialları gücləndirməyə davam edib. Ərzaq və kənd təsərrüfatı ilə bağlı məlumat və informasiyaların yaradılması və təhlili üçün potensiallar inkişaf etdirilib. Beləliklə, Dövlət Statistika Komitəsinin DİM göstəriciləri (5.a.1, 4.1.2, 12.4.1) üzrə məlumatların toplanması və kənd təsərrüfatının elektron siyahıyaalınması üzrə potensialı gücləndirilib. Həmçinin, DİM göstəriciləri üzrə məlumatlardakı uyğunsuzluqları və boşluqları aradan qaldırmaq üçün cavabdeh təşkilatlarla və DSK ilə əməkdaşlıq edib, , eyni zamanda DİM İndeksi hesabatında məlumatlarla bağlı tendensiyaları müvafiq tərəfdaş təşkilatlarla təhlil edib. 23 illik fasilədən sonra, Çoxgöstəricili Klaster Sorğusu (MICS) çərçivəsində sahə işləri başa çatıb və ilk dəfə Naxçıvan Muxtar Respublikasını da əhatə edib. Bu məqsədlə, peşəkar hazırlıq keçmiş 115 sahə işçisi 616 klasterdə 12320 ev təsərrüfatından məlumatlar toplayıb. MICS sorğusu ölkədə ana və uşaq sağlamlığı, qidalanma, öyrənmə bacarıqları, suyun keyfiyyəti, sosial transfertlər, təmiz yanacaq və texnologiyalar kimi vacib mövzularda 200-ə yaxın göstərici üzrə əhatəli, statistik baxımdan etibarlı, dezaqreqasiya olunmuş və beynəlxalq səviyyədə müqayisəli məlumatlar təmin edir. Bununla, həm də ilk dəfə sorğu çərçivəsində milli səviyyədə suyun keyfiyyətinin analizi aparılıb.

Həmçinin, Səhiyyə Hesabları Sistemi və səhiyyə xərclərinin izlənməsinin institusional çərçivəyə salınması üzrə potensiallar gücləndirilib. Cins üzrə dezaqreqasiya olunmuş 10 yeni göstərici statistik məlumatlar bazasına daxil edilib və 56 hökumət nümayəndəsinin şəhər yerləri üzrə urbanizasiya dərəcəsinin tətbiqi (DEGURBA) üzrə potensialları gücləndirilib. BMT, əhali üzrə perspektiv proqnozlarının hazırlanmasında Hökumətə dəstək göstərməyə davam edib. Eyni zamanda, Milli Transfer Hesablarına (yaş, gender və iqtisadi davranışlar arasındakı əlaqəni ölçmək və təhlil etmək üçün çərçivə) dair praktiki tövsiyələr təmin edilməsi, xüsusilə doğumun azalmaqda olduğu və əhalinin sürətlə yaşlandığı ölkələr üçün aktualdır.

2023-cü ildə DİM-lərə töhfə (büdcənin %-i)




2023-cü ildə gender bərabərliyinə töhfə (xərclərin %-i)




2023-cü ildə büdcə

İcra: 83%

Büdcə (ABŞ dolları) 2,578,687

Xərc (ABŞ dolları) 2,143,889



BMT qurumları

Food and Agriculture Organization of the United Nations

UNDP

UNECE

UNHCR The UN Refugee Agency

unicef for every child

World Health Organization

Gözəl Hümbətzadə - iqlim gündəliyini dəstəkləyən "yaşıl" həll vasitələrini müəyyən etmək üçün seçilmiş 19 iqlim könüllüsü və gəncdən biri
Fotonun müəllifi: UNICEF/Adil Çələbiyev/2023

NƏTİCƏ 3.1

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏ

İnsanlar, o cümlədən kənarda qalanlar təbii sərvətlərin dayanıqlı şəkildə idarə olunmasını, yaşayış üçün vasitələrinin qorunmasını və dayanıqlılığın artırılmasını təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi üzrə siyasətlərdən faydalanır

## İqlim dəyişmələri ilə mübarizə

2023-cü ildə BMT iqlim dəyişikliyi ilə bağlı planlaşdırma, izləmə və hesabatvermə, habelə iqlim maliyyələşməsi və texnologiyalarına çıxış üçün institusional potensialları gücləndirməyə davam edib. 2023-cü ilin oktyabr ayında BMT-nin dəstəyilə Hökumət yenidən baxılmış Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrini (NDC-lər) təqdim edib və hazırda NDC-lər üzrə Maliyyə Strategiyası və İnvestisiya Planı ilə bağlı işlər davam edir.

**Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrdən əsas məqamlar**

- Azərbaycanın yenidən baxılmış NDC-ləri beynəlxalq dəstəkdən asılı olaraq, 2050-ci ilədək emissiya səviyyələrinin 1990-cı illə müqayisədə 40% azaldılması öhdəliyini nəzərdə tutur.
- İqlim dəyişikliyinin təsirlərinin yumşaldılması üzrə tədbirlər üçün müəyyən edilmiş sektorlara enerji, sənaye prosesləri və məhsuldan istifadə, kənd təsərrüfatı, torpaqdan istifadə, torpaqdan istifadədə dəyişikliklər, meşəçilik və tullantılar daxildir.

Yenidən baxılmış NDC-lər də təsdiq edir ki, ölkə xüsusilə kənd təsərrüfatı kimi həssas sektorlar üçün müvafiq uyğunlaşma tədbirlərini planlaşdırmağa və icra etməyə davam edəcək.

BMT həmçinin, iqlimə investisiyalar üzrə "ağıllı" alətlər, o cümlədən səmərəli büdcə planlaşdırması və iqlimlə əlaqəli təşəbbüslərə investisiya üçün təlimatlar hazırlayıb və iqlim dəyişmələrinə uyğunlaşmaya köklənən hüquqi bazanın layihəsini hazırlayıb. Bu layihə özündə iqlimlə əlaqəli çağırışların öhdəsindən gəlmək üçün tənzimləmə

2023-cü ildə DİM-lərə töhfə (büdcənin %-i)




2023-cü ildə gender bərabərliyinə töhfə (xərclərin %-i)




2023-cü ildə büdcə — İcra: 81%

Büdcə (ABŞ dolları) 4,364,547

Xərc (ABŞ dolları) 3,535,444

yanaşmasında əhəmiyyətli irəliləyişi əks etdirir. Hökumət qurumları və özəl sektordan maraqlı tərəflər üçün ölçmə, hesabatvermə və yoxlama sistemi üzrə müvafiq təlim materialları hazırlanıb. İqlim Veb Portalı istifadəyə verilib. Portal, iqlim məlumatlarını bir mərkəzi bazada saxlanması və etibarlı məlumatlara əsaslanan qərarların qəbulu və siyasətlərin hazırlanmasına kömək edir. O, həmçinin iqlim dəyişmələri sahəsində tədbirlər görən dövlət qurumları arasında kommunikasiyanın səmərəliliyini artırır. Müvafiq dövlət qurumlarını təmsil edən 75 əməkdaş Quba-Xaçmaz, Qobustan-Şamaxı və Neftçala-Salyan regionlarında yerli iqlim çağırışlarını tədqiq edib. Bundan əlavə, Xəzər dənizinin səviyyəsindəki enib-qalxmaların səbəblərini tədqiq etmək və iqlim ssenariləri və adaptasiya tədbirləri hazırlamaq üçün ekspert qrupunun görüşü keçirilib. Bu, regional məlumatlılığı yaxşılaşdırıb və sahilyanı icmalar və siyasətçilər arasında daha yaxşı əməkdaşlığa təkan verib. Bundan əlavə, 175 fermer iqlim dəyişmələrinə adaptasiya və davamlılığı artıran təcrübələr barədə məlumatlandırılıb. Adaptasiya və iqlim dəyişmələrinə davamlılığı artırmağı hədəfləyən 15 təlim və nümayiş tədbirində 324 maraqlı tərəf çıxış edib. Bununla yanaşı, Ümumdünya Ətraf Mühit Günü ilə bağlı tədbirlər ətraf mühit məsələləri üzrə ictimai məlumatlılığı və fəallığı artırıb.

## Su ehtiyatlarının idarə olunması

BMT-nin dəstəyilə, özəl sektorun, fermerlərin və Hökumətin su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi üçün təhlil, planlaşdırma və əlaqələndirmə sahəsində potensialları gücləndirilib. Su sektorunda mövcud olan boşluqları təhlil etmək və su ehtiyatlarının idarə olunması ilə əlaqəli məsələləri təhlil etmək üçün "Təkmilləşdirilmiş su idarəçiliyi: kənd təsərrüfatının dayanıqlı inkişafına doğru" adlı hesabat hazırlanıb. "Yeni ərazilərdə kənd təsərrüfatı və suvarma imkanlarının təhlili" adlı hesabat hökumətə təqdim edilib. "Azərbaycanda mövcud su ehtiyatı üzrə ssenarilərin hazırlanması" tədqiqatı başa çatıb. Onun nəticələri səlahiyyətli qurumlara sudan səmərəli istifadə tədbirlərinin su təchizatına təsirini müəyyən etməkdə kömək edəcək və gələcəkdə su təhlükəsizliyi ilə bağlı çətinlikləri aradan qaldırmaq üçün səmərəli siyasətlərin hazırlanmasına istiqamət verəcək. BMT-nin dəstəyilə "AquaCrop" - əkinçilikdə sudan səmərəli istifadə modeli təqdim olunub və milli maraqlı tərəflərin və su ehtiyatlarının idarə olunmasına dair məlumatlı qərarlar vermək üçün bu modelin tətbiqi üzrə potensialları gücləndirilib. 2023-cü ildə 6 kəhriz bərpa edilib və bunun nəticəsində 190 ev təsərrüfatı davamlı su təchizatına sahib olub. 10 rayonda 270 fermer (35 faizi qadın) su ehtiyatlarından səmərəli istifadə üzrə məlumatlandırılıb. Bundan əlavə, BMT-nin Su Konfransı zamanı Azərbaycan tərəfindən təşkil olunan paralel tədbirdə müxtəlif hökumət qurumları su ehtiyatlarının mövcudluğu ilə bağlı çətinliklərin aradan qaldırılması üçün əlaqələndirilmiş səylərin əhəmiyyətini müzakirə edib.



Fermerlər iqlim dəyişmələrinə uyğunlaşma tədbirlərini və kənd təsərrüfatında dayanıqlığı artıran təcrübələri başa düşmək və onları tətbiq etmək üçün təlim səfərində iştirak edirlər. Fotonun müəllifi/BMTİP/2023



**İQLİM VEB PORTALİ İSTİFADƏYƏ VERİLİB**

**574**
**NƏFƏR**
iqlimə davamlı tədbirlər barədə məlumatlandırılıb

**665**
**NƏFƏR**
enerjidən səmərəli istifadə üzrə tədbirlərdən faydalanıb

Oxumaq üçün klikləyin




AZƏRBAYCANDA FINDIQÇIIQ SEKTORU DƏYƏR ZƏNCİRİNDƏ YAŞIL ENERJİ TƏDBİRLƏRİ ÜÇÜN SEÇİMLƏR

## Enerji səmərəliliyi

BMT həmçinin, potensial bioenerji mənbəyi kimi fındıqçılıq üzrə dəyər zəncirinin müfəssəl qiymətləndirməsini aparıb və istilik effekti yaradan qaz tullantılarının potensial azalması üçün müəyyən edilmiş texnologiyaların tətbiqinin genişləndirilməsi istiqamətində tələb olunan təqribi investisiyanı hesablayıb. Bərdədə tətbiq olunan enerji səmərəliliyi tədbirləri enerji istehlakının azalması ilə əlaqədar elektrik enerjisi ödənişlərinin 30% azalmasına gətirib çıxarıb və 62 aztəminatlı ailə, 240 fərd və 425 məktəbli üçün yaşayış şəraitinin yaxşılaşmasına səbəb olub.

## Biomüxtəlifliyin və meşələrin qorunub saxlanması

BMT Hirkan və Şirvan milli parklarında Azərbaycanın mühafizə olunan ərazilər sisteminin effektivliyinin gücləndirilməsi vasitəsilə biomüxtəlifliyin mühafizəsi səylərini dəstəkləməyə davam edib. Hər iki milli park Qafqaz üçün Təbiəti Mühafizə Planında "prioritet mühafizə olunan ərazilər" kimi müəyyən edilib. Bundan əlavə, BMT Hirkan və Şirvan milli parklarında ekosistem məhsul və xidmətlərinin sosial-iqtisadi dəyəri üzrə

qiymətləndirmələri başa çatdırıb. Ölkənin xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsi üçün Ekosistem əsaslı Monitorinq Çərçivəsinin hazırlanması yekunlaşdırılıb və hazırda Hökumət tərəfindən nəzərdən keçirilir.

Qafqaz ekoregionu üçün daha geniş transsərhəd ekoloji şəbəkənin yaradılması və səmərəli idarə olunmasını dəstəkləyən milli tədbirlərin icrasını istiqamətləndirmək məqsədilə Azərbaycan üçün landşaft miqyaslı təbiəti mühafizə planının hazırlanmasına başlanılıb.

4 idarəetmə modulu (ətraf mühitin inventarlaşdırılması və monitorinq məlumatları, rəqəmsal kitabxana, geoməkan məlumatları və parkların idarə olunmasının planlaşdırılması və əməliyyatlar) sınaqdan keçirilib. İqlim dəyişmələrinin meşəçiliyə mənfi təsirləri ilə mübarizə aparmaq üçün Təbiət əsaslı həllərin icrasına dair təlimatlar hazırlanıb.

90-a yaxın maraqlı tərəf üçün sahədə nümayiş təlimləri keçirməklə şabalıd və eldar şamı meşələrinin dayanıqlı şəkildə idarə olunması təkmilləşdirilib. Meşələrdə bal arıları və vəhşi tozlandırıcılar üçün yaşayış mühitlərinin səmərəli idarə edilməsi üzrə Yol Xəritəsi hazırlanıb. Eyni zamanda, yenilənmiş "Azərbaycanda Çoxfunksiyalı Meşə İdarəçiliyi planlarının hazırlanması qaydaları"ndan istifadə üzrə potensiallar gücləndirilib.

## Ətraf mühit amilləri ilə bağlı təhlükələrin və çirklənmənin azaldılması

BMT Hökumətə Rotterdam Konvensiyasının ölkə tərəfindən təsdiqinə hazırlaşmaqda kömək edib. Sözügedən Konvensiya tərəflərə özlərini təhlükəli kimyəvi maddələrin arzuedilməz idxalı hallarından qorumaqda kömək edir.

Hökuməti təmsil edən maraqlı tərəflər "Böyük məsafələrdə transsərhəd hava çirkləndirilməsi haqqında" Konvensiyanın tələblərinə uyğun olaraq, havanı çirkləndirən maddələrin emissiyalarının inventarlaşdırılması barədə məlumatlandırılıb. Gəncədə Strateji Ekoloji Qiymətləndirmə və Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə maarifləndirmə sessiyaları keçirilib. Azərbaycanda yüksək dərəcədə təhlükəli pestisidlərdən istifadəyə alternativlər təklif edən, zərərvericilərlə kompleks mübarizə üzrə milli fəaliyyət planı hazırlanıb.

Davamlı üzvi çirkləndiricilərin sement sobalarında pilot qaydada zərərsizləşdirilməsi uğurla həyata keçirilib, onların təhlükəsiz zərərsizləşdirilməsinə dair texniki qaydalar hazırlanıb və çirklənmiş sahələrdə araşdırmalar aparılıb. Bunun nəticəsində bərpa və reabilitasiya planları hazırlanaraq Hökumətə təqdim olunub. 220 ton maye şəklində davamlı üzvi çirkləndiricilər və digər köhnəlmiş pestisidlər təhlükəsiz şəkildə zərərsizləşdirilib. Bundan əlavə, 7 rayonda 24 səhiyyə müəssisəsində tibbi tullantıların idarə olunması qiymətləndirilib və tibbi tullantıların daşınmasını və zərərsizləşdirilməsini həyata keçirən 3 özəl şirkət bu sahədə bilik və təcrübələrini artırıb.

## Daha təmiz istehsal və istehlak təcrübələri

İnsanlara və ətraf mühitə qarşı riskləri azaltmaq və səmərəliliyi artırmaq məqsədilə, proses, məhsul və xidmətlərdə resurslardan daha səmərəli istifadə və daha təmiz istehsal (RSDTİ) təcrübələrinin və texnologiyalarının təşviqi üçün Bakı və Gəncədə 2 RSDTİ klubu yaradılıb, 15 RSDTİ qiymətləndirməsi aparılıb və 30-dan yuxarı biznes ssenarisi hazırlanıb. Bundan əlavə, RSDTİ üzrə tədbirlər planlarını icra edən 30-dan artıq müəssisənin işi monitorinq edilib və daha 17 müəssisə məlumatlandırılıb.

BMT-nin dəstəyilə, Məhsulun Ekoloji İzi təcrübələri (bir məhsulun və ya xidmətin öz həyat dövranı ərzində ekoloji səmərəliliyinin çoxmeyarlı ölçüsü) təqdim olunub və BMT "Azərbaycanda buğda pası ilə mübarizə üzrə Milli Strateji Proqram və Fövqəladə Plan"ın hazırlanmasına dəstək göstərib. Sənəddə pas xəstəliyi problemlərinin qarşısının alınması və səmərəli mübarizə mexanizmlərinin yaradılması üçün institusional imkanlar müəyyən edilib.

- Mühafizə olunan ərazilər üçün Ekosistem əsaslı Monitorinq Çərçivəsinin hazırlanması yekunlaşıb
- Meşəçilik üçün Təbiət əsaslı Həllərə dair Təlimatlar hazırlanıb
- Bal arıları və tozlandırıcılar üçün meşələrin idarə olunmasına dair Yol Xəritəsi hazırlanıb
- Zərərverici həşəratlarla kompleks mübarizə üzrə milli fəaliyyət planı hazırlanıb
- 220 ton maye şəklində DÜÇ və digər pestisidlər təhlükəsiz şəkildə zərərsizləşdirilib
- 7 rayonda 24 səhiyyə müəssisəsində tibbi tullantıların idarə olunması qiymətləndirilib

### Azərbaycanlı gənclər iqlim dəyişmələri ilə mübarizəyə çağırır



Videonu izləmək üçün klikləyin



## Ümid Hekayəsi

Müşahidədən Fəaliyyətə: Leylanın nailiyyəti

18 yaşlı iqlim fəalı Leyla ailəsi ilə uşaqlıq gəzintiləri zamanı yerli su hövzələrindəki çirklənməni xatırlayır: "Mən buna görə narahat olurdum, çünki tullantılar təkcə gözəl mənzərəni korlamır, həm də orada yaşayan bütün canlıların həyatı üçün çətinlik yaradır" Fərqlilik yaratmağa qərarlı olan Leyla, dostları ilə həll yolları haqqında fikir mübadiləsi aparır.

"Biz gördük ki, çirklənmiş hövzələrdə işləyən insanlar üçün təmizlik işləri təhlükəli ola bilər", - o deyir. Dostların səyləri öz bəhrəsini verdi, onlar birlikdə su hövzələrini insanın köməyi olmadan təmizləyə bilən cihazın prototipini hazırladılar və yerli müsabiqədə mükafata layiq görüldülər.Bu uğurdan ilhamlanaraq, Leyla töhfə verməyə davam etdirmək üçün Gənc İqlim Elçiləri proqramına qatıldı.

**"Məncə, hər bir gənc bu problemi həll etmək üçün daha çox çalışarsa, gələcəyimizi daha dayanıqlı edə bilərik"**

DAHA ƏTRAFLI BURADAN OXUYUN




BMT qurumları

UNDP · UNFPA · UNHCR · unicef for every child · UN WOMEN

“Atalar məktəbləri” stereotipləri qırmağa və ataları ev işlərindəki və ailə dinamikasındakı öz vacib rollarını qəbul etməyə təşviq edir
Fotonun müəllifi: UNFPA/2023

# NƏTİCƏ 4.1
# GENDER BƏRABƏRLİYİNƏ ƏSASLANAN CƏMİYYƏT

Müvafiq müdafiə tədbirlərindən kənarda qalanlar da daxil olmaqla, qadın və qızlar onların ayrı-seçkilik və zorakılıqdan qorunmasını təmin edən və həyatın bütün sahələrində iştirakı üçün səlahiyyətlərini artıran təkmilləşdirilmiş milli mexanizmlərdən faydalanır

2023-cü ildə Azərbaycan 2023-cü il Qlobal Gender Fərqi İndeksində əvvəlki illə müqayisədə bir qədər irəliləyərək 0.692 balla 146 ölkə arasında 97-ci olub. Azərbaycandakı BMT sistemi gender əsaslı ayrı-seçkiliyi aradan qaldırmaq və hamı üçün bərabər imkanları təmin etmək üçün tərəfdaşları ilə işini davam etdirib.

## Gender əsaslı zorakılığa qarşı cavab tədbirləri

2023-cü ildə BMT gender əsaslı zorakılığın və digər zərərli ənənəvi təcrübələrin aradan qaldırılması üçün strateji müdaxiləri dəstəkləməyə davam edib.

Siyasət tədbirlərinin davamlılığını təmin etmək üçün Hökumətlə dialoq, effektiv institusional mexanizmlərin təşviqi, gender əsaslı zorakılığa cavab tədbirlərinin əlaqələndirilməsinə cavabdeh olan yerli monitorinq qruplarının 50 nümayəndəsinin bacarıqlarının gücləndirilməsi, zorakılıq qurbanları üçün qaynar xəttin saxlanması, qaynar xətt vasitəsilə bir sıra xidmətlərə yönləndirmələri təmin etmək üçün hüquqi dəstəyin təqdim olunması, zorakılığa cavab üzrə fərdi hadisələrin idarə edilməsi sisteminin xəritələşdirilməsi bu istiqamətdə görülən işlərə nümunədir.

İl ərzində Qadın Resurs Mərkəzləri gender əsaslı zorakılığa məruz qalmış şəxslərə dəstək göstərməyə, onları potensialının gücləndirilməsi tədbirlərinə cəlb etməyə və zorakılığın valideynliyə təsirləri barədə maarifləndirici seminarlar təşkil etməyə davam edib. Beynəlxalq qadınlar, atalar və qız övladları günlərində gender əsaslı zorakılığın qarşısının alınması barədə geniş maarifləndirmə işləri aparılıb.

2023-cü ildə DİM-lərə töhfə (büdcənin %-i)




2023-cü ildə gender bərabərliyinə töhfə (xərclərin %-i)




2023-cü ildə büdcə

İcra: 86%

Büdcə (ABŞ dolları) 1,096,855

Xərc (ABŞ dolları) 945,342



# 1.5 MİLYON
**NƏFƏR**

gender stereotiplərinə dair kampaniyadan xəbərdar olub



# 400
**TİBB İŞÇİSİ**

hamiləlik və doğum zamanı kişilərin cəlb olunmasına dair təlimdən keçib



# 275
**QIZ**

STEM proqramlarına cəlb olunub



Beynəlxalq Ailə Günü Düşərgəsində qızlar STEM tədbirlərində iştirak edir
Fotonun müəllifi: UNFPA/2023



**REKLAMLARDA STEREOTİPLƏRƏ SON KAMPANİYASI**

Fəal şəkildə ev işləri ilə məşğul olan və uşaqlarına qulluq edən kişilər bir çox reklamlarda uşağa baxan valideyn rolunda yalnız qadınları əks etdirən yayğın stereotipə meydan oxuyurlar.

## Ayrı-seçkilik yaradan gender normaları və təcrübələri ilə mübarizə

Məktəblərdə gender bərabərsizliyinin qalmasına töhfə verən proses və təcrübələrin minimuma endirilməsinə yönələn səyləri dəstəkləmək məqsədilə, mentorlar, məktəb heyəti və dərsliklərin müəllifləri üçün təlimlər təşkil olunub. Müəllim heyətini, qeyri-tədris işçilərini və valideynləri cəlb etməklə, 10 orta məktəbdə gender aspektlərini nəzərə alan təcrübələri qoruyub saxlamağa imkan verən mühit yaratmaq üçün pilot tədbirlər icra olunub. 6800-dən artıq yeniyetmə qız üçün keçirilmiş məlumat sessiyaları zorakılığın və zərərli təcrübələrin qarşısının alınması və reproduktiv sağlamlığın rolu barədə məlumatlılığı artırıb. Cəmiyyətdə qızların dəyərini təbliğ edən və gender əsaslı ayrı-seçkilik, zorakılıq və erkən nikahı əhatə edən maarifləndirmə tədbirləri 5 rayonda 2547 nəfəri əhatə edib.

## Kişilər gender bərabərliyi naminə

Məsuliyyətli atalıq anlayışı əhəmiyyətli dərəcədə təbliğ olunub və Beynəlxalq Atalar Günü atalarla övladları, xüsusilə qızları arasında daha güclü bağ təşviq etmək üçün fürsət kimi istifadə edilib. 2023-cü ildə 333 gənc ata və ata olmağa hazırlaşanlar Azərbaycanın 10 rayonunda icra olunan “Atalar məktəbi” sessiyalarından faydalanıb. Dövlət səhiyyə müəssisələrinin əsas ekspertlər qrupunun nəzarəti altında kişilərin doğumdan əvvəl və sonrasında uşağa qulluq xidmətlərinə cəlb edilməsini təşviq etmək üçün 3 səhiyyə müəssisəsində (Göyçay, Lənkəran, Bakı) xüsusi Ailə otaqları yaradılıb. 400 tibb işçisi kişilərin hamiləlik və doğuşda iştirakı üzrə təlimdən keçib. Eyni zamanda, doğumdan əvvəl qulluq və uşağa qulluq xidmətlərinə kişilərin cəlb edilməsi və məsuliyyətli atalıq mövzuları üzrə 1500 maarifləndirici material hədəf auditoriyaya çatdırılıb.

BMT ödənişli atalıq məzuniyyəti siyasətlərinin təsdiqi üçün parlament üzvləri və müvafiq nazirliklərin nümayəndələri ilə təşviqat aparmağa davam edib. “Reklamlarda stereotiplərə son” kampaniyası yerli reklam sektorunda stereotiplərə qarşı çıxmaq üçün 50 influenser və 10 tanınmış sosial media səhifəsini cəlb edib. Kampaniya sosial mediada 1.5 milyon insana çatıb və baxışların sayı isə 2 milyon olub. Bundan əlavə, “Kişilər gender bərabərliyi naminə” virtual sosial media platforması gender bərabərliyi və inanc arasındalı əlaqə ilə bağlı informasiya, xəbərlər, bloqlar, videolar və məqalələr təqdim edərək əsas onlayn resurs mərkəzi rolunu oynayıb.

## Qızlar STEM-də

BMT gənc qadın və qızların elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) sahələrində iştirakını dəstəkləməyə davam edib. 2023-cü ildə 125 yeniyetmə qız STEM proqramlarından faydalanıb və məktəbli qızlar arasında bu sahədə karyera imkanları barədə məlumatlılığı artırmaq üçün onlayn kurs yaradılıb.

150-dən yuxarı qız “Qadınlar STEM-də” proqramında iştirak edib. Hər bir iştirakçıya təyin edilən mentor onların şəxsi və peşə həyatlarının müxtəlif istiqamətləri üzrə dəstək və məsləhətlər verib. Azərbaycanın cənub rayonlarında “HeForShe” təhsil proqramı 200-dən artıq qız arasında STEM sahələrində karyera imkanları barədə məlumatlılığı artırıb və ataları gender bərabərliyi üçün fəaliyyət barədə maarifləndirib.

# 300 Ə YAXIN

insan gender əsaslı zorakılıq üzrə qaynar xətt vasitəsilə dəstək alıb

10 rayonda gender əsaslı zorakılıq üzrə monitorinq qruplarının potensialı gücləndirilib

## Ümid Hekayəsi

Qaranlıqdan işığa:
Narginin keçdiyi yol

Hər bir gənc qız kimi, 21 yaşlı Nargin (şərti adı) ailə quranda daha xoşbəxt gələcəyə addım atdığını düşünürdü. Lakin əri, qayınanası və baldızı onu hədələməyə, ona qarşı fiziki zorakılıq törətməyə başladılar. 3 uşağını görə bilməyən Nargin evindən də qovulmuşdu. Ağcabədidəki Qadın Resurs Mərkəzinin məsləhəti və dəstəyilə, o, psixoloqla görüşdü. Mərkəzin koordinatoru və psixoloqu onu intiharın eşiyindən qaytarmaq üçün müdaxilə etdilər. “Onun mənə ilk dediyi ondan ibarət oldu ki, həyat bitməyib və öz uşaqlarım üçün mübarizə apara bilərəm”, - deyə Nargin bildirir. O öyrəndi ki, öz uşaqlarına qovuşa bilər və hüquqi xidmətlərdən faydalana bilər. Nargin karyera inkişafı üzrə təlimlərə və əsas kompüter bacarıqları üzrə kurslara qoşuldu və tezliklə iş tapdı. O əlavə edir: **“Bu mərkəzdən çox şey qazandım. Öz ayağımın üstündə durmağı öyrəndim. Burada gördüm ki, çətinliklər nə olursa-olsun, qadınlarımız özlərini kəşf edə bilirlər. Mərkəzin sayəsində onların dünyaya baxışı dəyişib.”**

DAHA ƏTRAFLI BURADAN OXUYUN

## 2.3. Tərəfdaşlıqlara dəstək və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi

### Dayanıqlı maliyyələşmə

2018-ci ilin oktyabrında keçirilmiş Dayanıqlı İnkişaf üzrə Birinci Regional Forumun uğuruna əsaslanaraq, 15-16 noyabr 2023-cü il tarixlərində Dayanıqlı İnkişaf üzrə İkinci Bakı Forumu keçirilib və 2023-cü ildə qlobal DİM-lər üzrə Sammitdə əsası qoyulmuş yüksək səviyyəli dialoqun davamı kimi çıxış edib. Forumda iki analitik alət təqdim və müzakirə edilib: (1.) Azərbaycanın DİM İnvestor Xəritəsi - 4 əsas milli prioritet sektorda (infrastruktur, bərpa olunan resurslar və alternativ enerji, qida, xidmətlər/turizm) investisiya edilə biləcək 10 sahəni göstərir; (2.) İnvestisiya Ekosisteminin Tədqiqi - inkişaf üçün texnoloji imkanlardan istifadə etməklə və özəl sektor həllərini cəlb etməklə, ekosistemin inkişafı üçün potensial sahələrin maraqlı tərəflərinin hərtərəfli xəritəsini təqdim edir.

BMT həmçinin, DİM-lərin maliyyələşdirilməsi gündəliyinə, xüsusilə DİM-lərlə bağlı fəaliyyətlər üzrə dövlət büdcəsində vəsaitlərin işarələnməsinə (SDG tagging) dair yüksək səviyyəli siyasi öhdəliyin götürülməsinə təkan verib. Bununla yanaşı, BMT, Ətraf mühit, sosial və idarəetmə prinsiplərinin (ESG) inteqrasiyası üzrə çərçivənin yaradılmasına dəstək göstərib. Bu çərçivə Sahibkarlığın İnkişafı Fondu üçün ESG prinsiplərinin inteqrasiyasına dair yol xəritəsini ehtiva edir. Bu fəaliyyətlər BMT-nin Birgə DİM Fondunun maliyyə dəstəyilə, ilk İnteqrə olunmuş Milli Maliyyələşdirmə Çərçivəsinin (İMMÇ) yaradılmasında BMT-nin Azərbaycan Hökumətinə dəstəyi çərçivəsində reallaşıb.

Azərbaycanda 2023-cü ildə keçirilmiş qlobal DİM Maliyyə Akademiyası gəncləri və maraqlı tərəfləri müxtəlif maliyyə alətlərini, onların DİM-lərlə uyğunluğunu və siyasət islahatlarına təsirlərini anlamaq üçün zəruri olan bilik, bacarıq və hazırlıqla təmin edib.

### DİM Siyasət Dialoqları

DİM-lərin icrasının sürətləndirilməsi gündəliyinə dəstək olaraq, BMT və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası 2023-cü ildə çoxtərəfli yüksək səviyyəli siyasət müzakirələri platforması - DİM Dialoqlarını davam etdirib. 2023-cü ilin iyun ayında keçirilmiş "2030-cu ilə doğru: Azərbaycanda sosial-iqtisadi inklüzivlik" mövzusunda ikinci DİM Dialoqunda İnklüziv Artım İndeksi (IGI) əsasında Azərbaycanın inklüziv artım sahəsində irəliləyişinə nəzər salınıb və iqtisadi artımın və DİM-lərə doğru irəliləyişin inklüzivliyini artırmaq üçün tələb olunan əlavə siyasət tədbirləri müzakirə edilib. 2023-cü ilin oktyabr ayında keçirilmiş "2023-cü ilin Qlobal DİM Sammitinin nəticələri və DİM-lərin həyata keçirilməsində ali audit qurumlarının rolu" mövzusunda üçüncü DİM Dialoqu 2023-cü ilin Qlobal DİM Sammitinin nəticələrini müzakirə etmək və məlumat mübadiləsi aparmaq, DİM-lərin icrasında dövlət qurumlarının fəaliyyətinin səmərəliliyinin, eləcə də DİM-lər üzrə dövlət xərclərinin effektivliyinin monitorinqində ali audit qurumlarının rolunu nəzərdən keçirmək üçün çoxtərəfli forum kimi çıxış edib.




BMT öz tərəfdaşlarını "DİM Təşviqatçıları" olaraq ölkədə DİM-lərin icrasının gücləndirilməsinə verdikləri diqqətəlayiq töhfələrə görə BMT Günündə təşəkkürnamələr təqdim edərək mükafatlandırır. Fotonun müəllifi: BMT/Əziz Kərimov/2023

### Korporativ dayanıqlılıq

2022-ci ildə BMT-nin Qlobal Sazişinin (UNGC) Azərbaycandakı fəaliyyəti canlandırıldıqdan sonra, üzvlərin sayı 6 dəfə artıb və 2024-cü ilin mart ayında 34-ə çatıb.

Dünyanın bu ən böyük korporativ dayanıqlılıq təşəbbüsü şirkətləri öz strategiyalarını və fəaliyyətlərini insan hüquqları, əməyin müdafiəsi, ətraf mühit, korrupsiyaya qarşı mübarizə, daha geniş ictimai məqsədlər və DİM-lər üzrə universal prinsiplərlə uyğunlaşdırmağa çağırır.

## 2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı işləməsinin nəticələri: BMT birliyi, effektivliyi və səmərəliliyi

BMT-nin dəstəyilə, Azərbaycan DİM Sammiti ərəfəsində öz milli öhdəliklərini təqdim etmiş 40 ölkədən biri olub. BMT, "DİM-lər üzrə irəliləyişə aparan sürətli yollar: Azərbaycanın dayanıqlı inkişaf və DİM-lər üzrə irəliləyişə dair milli öhdəlikləri" adlı sənədin hazırlanmasında Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyi ilə yaxından əməkdaşlıq edib.

Bu sənədin hazırlanması əsas milli inkişaf strategiyaları və proqramlarında müəyyən olunmuş prioritetlərə, BMTİP tərəfindən hazırlanmış "İnteqrə olunmuş DİM təsəvvürləri" hesabatının nəticələrinə, BMT-nin rəhbərlik etdiyi DİM Siyasət dialoqlarının, Minatəmizləmə üzrə İkinci Beynəlxalq Konfransın tövsiyələrinə, DİM-lər üzrə İrəliləyiş Hesabatının Xüsusi Buraxılışında əksini tapan siyasət tədbirləri və investisiyalarının təsviri siyahısına və BMT-nin Yüksək Təsirli Təşəbbüslərinə əsaslanıb.

**Milli tendensiya və prioritetlərə əsaslanaraq, "İnteqrə olunmuş DİM təsəvvürləri" təhlili DİM-lərə doğru irəliləyişi sürətləndirmək üçün ən yüksək potensiala malik siyasət seçimləri kimi aşağıdakı DİM istiqamətlərini vurğulayıb:**

- Hədəf 2.2: Pis qidalanmanın bütün formalarına son qoymaq
- Hədəf 4.3: Maddi baxımdan əlçatan texniki, peşə və ali təhsilə bərabər çıxış imkanı
- Hədəf 6.1: Təhlükəsiz və maddi baxımdan əlçatan içməli su
- Hədəf 7.2: Qlobal enerji təchizatında bərpa olunan enerjinin payını əhəmiyyətli dərəcədə artırmaq
- Hədəf 8.6.: Məşğulluqda, təhsildə və ya təlimdə iştirak etməyən gənclərin xüsusi çəkisini əhəmiyyətli dərəcədə azaltmaq
- Hədəf 9.2: İnklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək
- Hədəf 10.4: Bərabərliyi təşviq edən maliyyə və sosial siyasətləri qəbul etmək

DİM Sammitindən sonra, 24 oktyabr 2023-cü il tarixində keçirilən Üçüncü DİM Dialoqu 2023-cü ilin Qlobal DİM Sammiti və İnkişaf üçün Maliyyələşmə üzrə Yüksək səviyyəli Dialoqun nəticələrini müzakirə etmək və məlumatları mübadilə etmək üçün platforma təmin edib. BMT-nin Ölkə üzrə İdarə Heyəti həmçinin, Altı Keçidi[5] Nəticə Qruplarının İllik İcmal və Planlaşdırma görüşünə daxil etməyə qərar verib.

BMT qurumlarının, Aİ-nin və Dünya Bankının milli, regional və qlobal ekspertləri 21 dövlət qurumu ilə bir araya gələrək, Bərpa Ehtiyaclarının Birgə Qiymətləndirilməsini (BEBQ) aparıb. Qiymətləndirmə prosesi iştirak edən hər kəs üçün metodologiya ilə bağlı əhatəli təlimin keçirilməsi ilə müşayiət olunub və ardınca, komponentlər üzrə qrupların rəhbərlik etdiyi intensiv təhlil işləri aparılıb, o cümlədən Azərbaycana və münaqişədən zərər çəkmiş 3 rayona 10 günlük missiya səfəri həyata keçirilib. Prosesə Azərbaycan Respublikasının Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi və İqtisadiyyat Nazirliyinin nümayəndələri, Rezident Əlaqələndirici, Dünya Bankının Ölkə Meneceri və Aİ Nümayəndəliyinin Rəhbərindən ibarət İstiqamətləndirici Komitə nəzarət edib. Ehtiyacların təhlili əsasında və milli strategiya və planların vaxt çərçivələrinə uyğun olaraq qısamüddətli (2024-cü ilədək), ortamüddətli (2026-cı ilədək) və uzunmüddətli (2030-cu ilədək) dövr üçün prioritetlər müəyyənləşdirilib. BMT və Hökumətin 2023-cü ildə birgə icra etdiyi və beş nəticən qrupunu əhatə edən illik icmal prosesi BMT rəhbərlərinin və nazir müavinlərinin həmsədrliyi altında həyata keçirilib. Müzakirələrə və planlaşdırma prosesinə istiqamət vermək üçün bu icmal prosesi “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və Böyük Qayıdışa dair Dövlət Proqramı”nın prioritetlərinə və Ölkə üzrə Ümumi Təhlilin yeni illik buraxılışının nəticələrinə əsaslanıb. BMT-nin qurumları səylərini birləşdirərək UNINFO-nun ən yeni və düzgün məlumatlarla yenilənməsi və İllik Hesabatın təqdim olunması vasitəsilə maraqlı tərəflər, Hökumət və əhali qarşısında hesabatlılığın təmin olunmasına nail olub. Bundan əlavə, mart ayında Ağdamda Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin Ölkə üzrə İdarə Heyəti arasında İllik Yüksək Səviyyəli Strateji Məsləhətləşmə baş tutub və bu, xüsusilə ölkə kontekstini və bərpa və yenidənqurma səylərində nəzərəçarpan irəliləyişi nəzərə alaraq strateji dialoq üçün vacib platforma kimi çıxış edib. Görüş 2023-cü ildə gücləndirilmiş əməkdaşlıq və tərəfdaşlıq üçün dəyişən prioritetlər və imkanlarla bağlı müzakirələrə şərait yaradıb. Hökumətlə əməkdaşlıqdan əlavə, Azərbaycandakı BMT qurumları daha yüksək nəticələr və səmərəlilik üçün birlikdə digər təşəbbüslər də həyata keçirib. Qurumlararası İşçi Qrupu iqtisadi rayonların sosial-iqtisadi təhlilinə xüsusi diqqət yetirməklə, 2023-cü il üçün Ölkə üzrə Ümumi Təhlilin illik yenilənməsini icra edib. BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 2023-cü il İqtisadi Forumu zamanı, paralel olaraq BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) və Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) ekspertlərinin və BMT-nin Rezident Əlaqələndiricisinin SPECA ölkələrinin iqtisadçılarının ticarət və nəqliyyat, enerji əlaqəliliyi və yaşıl transformasiya mövzusunda birgə texniki görüşü keçirilib. BMT, Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması üzrə Fəaliyyət Planının qiymətləndirmə cədvəlinin minimum performans tələblərinin qarşılanması və keçilməsi istiqamətində irəliləyişə təkan vermək üçün 2023-cü il üzrə illik irəliləyişin qiymətləndirilməsinə başlayıb. Nəticələr göstərir ki, 15 göstəricidən 9-u minimum tələbləri ödəyir və ya keçir.

## Gender üzrə qiymətləndirmə cədvəli



60%

**15 GÖSTƏRİCİDƏN 9-U**

**MİNİMUM TƏLƏBLƏRİ ÖDƏYİR VƏ YA KEÇİR.**

## Birgə kommunikasiya

Azərbaycandakı BMT qurumları və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi “Qadınlara və qızlara qarşı zorakılığa son qoymaq üçün birləşək!” şüarı altında gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyası keçirib. Kampaniya çərçivəsində qanunvericilik çərçivələri və gender əsaslı zorakılığın psixoloji təsiri ilə bağlı müzakirələr, gənclər üçün gender bərabərliyi və gender əsaslı zorakılıqla bağlı yönləndirmə sistemləri haqqında maarifləndirmə sessiyaları, ölkənin müxtəlif yerlərində o cümlədən Qadın Resurs Mərkəzlərində tədbirlərkeçirilib, eləcə də sosial media çağırışları təşkil olunub. 2023-cü ildə “BMT-Azərbaycan: Dayanıqlı İnkişaf Məqsədlərinə doğru” televiziya proqramının BMT və Hökumətin əsas ekspertlərinin iştirak etdiyi 13 buraxılışı efirə gedib. Proqram ərzaq və kənd təsərrüfatı, dayanıqlı şəhərlər, peşə təhsili, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə, ətraf mühitin mühafizəsi, sağlamlıq, miqrasiya, insan hüquqları, gender əsaslı cinsi seçim və gender əsaslı zorakılıqla mübarizə mövzularını əhatə edib.Bundan əlavə, Azərbaycandakı BMT qurumlarının sosial media səhifələri BMT-nin Azərbaycanda gördüyü işləri və bu işlərin nəticələrini nümayiş etdirməyə davam edib və birgə kampaniyalara, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75-ci ildönümünə, əlilliyi olan şəxslərin inklüziv cəlbi ilə bağlı “Güvən Yürüşü” kampaniyasına və digərlərinə dəstək göstərib.

## Sülh və sosial birliyin təşviqi

Soyqırımların Qarşısının alınması üzrə Xüsusi Müşavirin Ofisinin dəstəyilə və BMT-nin Nifrət Nitqi üzrə Strategiyası və Fəaliyyət Planına uyğun olaraq, Azərbaycandakı BMT sistemi fəaliyyət planı hazırlayıb. Onun məqsədi münaqişənin de-eskalasiyasına töhfə vermək, zorakılığın qarşısını almaq üçün nifrət nitqi ilə mübarizə aparmaq və Azərbaycanda və daha geniş regionda sülh və təhlükəsizliyi möhkəmləndirməkdir. BMTİP və BMT-nin Siyasi və Sülh Quruculuğu Məsələləri Departamentinin (DPPA) “Münaqişələrin Qarşısının Alınması üzrə Milli Potensialların Gücləndirilməsi” Birgə Proqramı rəqəmsal sülh quruculuğu təşəbbüslərini dəstəkləmək və gənc sülh qurucularının potensiallarını artırmaq üçün təkanverici layihələr həyata keçirib. Bu təşəbbüslərə kiçik qrantların verilməsi, rəqəmsal sülh quruculuğu üzrə seminarların təşkili, layihə benefisiarlarının qlobal BMT şəbəkələrindən olan ekspertlərlə əlaqələndirilməsi, habelə ölkədə və regionda vəziyyət barədə məlumatlılığı artırmaq üçün sosial medianın monitorinqi və nifrət nitqinin təhlili daxil olub. Bu proqrama daxil olan diqqətəlayiq yerli təşəbbüslərdən biri çərçivəsində sosial medianın azərbaycanlı və erməni istifadəçiləri arasında dinc dialoq və müzakirələr üçün platforma yaradılıb və hər iki tərəf bu müzakirələri müsbət qəbul edib.Hesabatın əvvəlki bölmələri BMT-nin insan hüquqlarının təşviqinə, gənclərin səlahiyyətlərinin artırılmasına, əlilliyi olan şəxslərin inklüziv cəlbinin təşviqinə və münaqişədən sonrakı bərpa təşəbbüslərinin dəstəklənməsinə istiqamətlənən birgə səylərini əhatə edir.

Builki BMT Günü əlilliyi olan şəxslərin inklüziv cəlbinə yönələn “Güvən Yürüşü” kampaniyası ilə yadda qaldı. Kampaniyanın məqsədi əlilliyi olan şəxslərin qarşılaşdığı çətinliklər barədə məlumatlılığı artırmaq və bu çətinliklərin daha yaxşı başa düşülməsinə kömək etmək idi.
Fotonun müəllifi: Gənclər Fondu/Məhərrəm Əliyev/2023




5. (1) ərzaq sistemləri; (2) enerjinin müyəssərliyi və sərfəliliyi; (3) rəqəmsal əlaqəlilik; (4) təhsil; (5) iş yerləri və sosial müdafiə; (6) iqlim dəyişmələri, biomüxtəlifliyin itirilməsi və çirklənmə.

## 2.5. Maliyyə icmalı və resursların cəlb olunması

Ümumi büdcə
**37,824,009**

Ümumi xərclər
**34,209,448**

**Nəticələr üzrə (ABŞ dolları)**




**Maliyyələşmə mənbəyi üzrə (ABŞ dolları)**




**Qurumlar üzrə (ABŞ dolları)**




### 2.5.2. Resursların cəlb olunması

Azərbaycandakı BMT sistemi 2021-2023-cü illərdə Çəeçivə sənədinin icrasına 92 milyon ABŞ dollarından artıq vəsait cəlb edib. Bu UNSDCF-in tam icrası üçün tələb olunan ümumi resursların 39 faizini təşkil edir. Ən yüksək maliyyə töhfəsi verən 3 əsas tərəfdaş arasında Azərbaycan Hökumətinin olması diqqətəlayiqdir.

BMT həmçinin öz əsas resurslarını da, xüsusilə COVID-19 pandemiyası və münaqişə kimi böhran vəziyyətlərində cəlb edib. Bundan əlavə, BMT İnteqrə olunmuş Milli Maliyyələşdirmə Çərçivəsinin yaradılmasında Hökuməti dəstəkləmək üçün Birgə DİM Fondundan 1 milyon ABŞ dollarına yaxın vəsait cəlb etməyə nail olub.BMT də daxil olmaqla maliyyələşmədə iştirak edən tərəfdaşların sayı 15-ə yaxın olsa da, 3 maliyyə mənbəyi— BMT, Aİ və Azərbaycan Hökuməti birlikdə bütün maliyyələşmənin 70%-ni təmin edib. Maliyyə töhfələrinin böyük hissəsi üzv dövlətlərdən daxil olub və cəmi 3 fond töhfə verib (Qlobal Ekoloji Fond, Yaşıl İqlim Fondu və QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fond). Bundan əlavə, 2021-2023-cü illərdə cəmi iki özəl şirkət maliyyələşdirmədə iştirak edib.

Bu, tərəfdaşlıqların daha çox şaxələndirilməsinin və daha məhsuldar tərəfdaşlıqların qurulmasının zəruriliyini vurğulayır. Azərbaycanda resursların cəlb olunması ilə bağlı çətinlik çoxtərəflidir. Bu, Azərbaycanın yuxarı-orta gəlirli ölkə statusu, ölkə daxilində töhfə verən tərəfdaşların sayının məhdud olması, birgə fond təşəbbüslərinin olmaması və töhfə verən tərəfdaşların diqqətinin meydana çıxan münaqişələr səbəbindən regiondakı digər ehtiyaclara yönəldilməsi ilə bağlıdır.

FƏSİL 3

# BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİNİN NÖVBƏTİ İL ÜÇÜN ƏSAS İSTİQAMƏTİ

Azərbaycandakı BMT sistemi 2024-cü ildə təsirli nəticələrə nail olmaq üçün səylərini artırır. Bu baxımdan, bu ilin noyabrında ölkənin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini xüsusi vurğulamaq lazımdır. COP29-un əhəmiyyətini və onun Azərbaycanda iqlim tədbirlərini genişləndirmək üçün bir fürsət yaratdığını qəbul edərək, BMT sistemi COP29 Prezidentinin ofisinə sistem səviyyəsində dəstək təmin edəcək və bütün maraqlı tərəflərlə iş aparacaq.

COP29-dan əlavə, BMT-nin Ölkə üzrə İdarə Heyəti hazırkı UNSDCF sənədinin yekun qiymətləndirməsinə və növbəti Ölkə üzrə Ümumi Təhlilin hazırlanmasına başlayaraq, 2026-2030-cu illəri əhatə edəcək növbəti UNSDCF üçün zəmin yaradacaq. 2024-cü ildə “Gələcəyin Sammiti”ndə iştirak etməyə hazırlaşan Hökumətə dəstək göstərmək də plandadır.

Münaqişədən sonrakı bərpa tədbirləri BMT üçün əsas prioritetlərdən biri olmağa davam edəcək. Bu baxımdan, minatəmizləmə işlərinə və Bərpa Ehtiyaclarının Birgə Qiymətləndirilməsinin nəticə və tövsiyələri əsasında məcburi köçkünlərin dayanıqlı qayıdışının dəstəklənməsinə xüsusi diqqət yetiriləcək. İqtisadi bərpa tədbirləri xüsusilə kənd yerlərində və münaqişənin təsirinə məruz qalmış ərazilərdəki orta və kiçik ölçülü müəssisələrə, qeyri-rəsmi işçilərə və yaşayış vasitələrinin stabilliyi baxımından risk altında olan həssas əhali qruplarına yönələcək. İqlim tədbirləri üçün siyasətlərin və maliyyələşmənin yaxşılaşdırılmasına, alternativ enerji mənbələrinin təşviqinə və biomüxtəlifliyin müdafiəsinə istiqamətlənən səylər, habelə ilkin səhiyyə xidməti, təhsil və sosial müdafiə sistemlərinin gücləndirilməsi səyləri BMT gündəliyinin tərkib hissəsi olmağa davam edəcək. Bundan əlavə, BMT gənclərin səlahiyyətlərinin artırılması, gender bərabərliyinin, insan hüquqlarının təşviqi, cinsi istismar və zorakılığın qarşısının alınması və əlilliyi olan şəxslərin inklüziv cəlbi təşəbbüsləri vasitəsilə normativ mandatının icrasını gücləndirəcək və bu, inklüziv və dayanıqlı proqramların həyata keçirilməsinə kömək edəcək.

Könüllü Milli İcmal prosesinə cəlb olunmaqla, BMT Milli DİM İzləmə aləti üçün DİM məlumatlarının təhlilinə dəstək göstərəcək və Cənub-Cənub əməkdaşlığı çərçivəsində biliklərin bölüşülməsinə şərait yaradacaq. 2024-cü ildə BMT-nin DİM üzrə siyasət dialoqları Hökuməti təmsil edən maraqlı tərəflər, elm ictimaiyyəti, vətəndaş cəmiyyəti təşkilatları və media ilə gender bərabərliyi, Könüllü Milli İcmal və iqlim tədbirləri mövzularında yüksək səviyyəli müzakirələr üçün platforma kimi çıxış etməyə davam edəcək.

Bu çoxsahəli səylər vasitəsilə, BMT milli inkişaf prioritetlərini dəstəkləməyə, milli öhdəliklər fonunda DİM-lərə doğru irəliləyişi sürətləndirməyə və bununla da Azərbaycan xalqı üçün daha inklüziv və dayanıqlı gələcəyin təmin edilməsinə dəstək verməyə davam edəcək.



BMT hər bir uşağın ömür boyu öyrənmə və rifah üçün güclü təmələ malik olmasını təmin etmək məqsədilə erkən uşaqlıq dövründə inkişaf üzrə təşəbbüslərə dəstək göstərir

Fotonun müəllifi: UNICEF/2023

UNITED NATIONS
AZERBAIJAN

BMT-nin Rezident Əlaqələndiricisinin
Ofisi BMT-nin 50 illiyi küçəsi, 3
AZ 1001 Bakı, Azərbaycan

Tel.: (+99412) 4989-888
www.azerbaijan.un.org